## Daha 740 yeni yoluxma faktı qeydə alınıb

22 nəfər ölüb, 2442 nəfər müalicə olunaraq sağalıb



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 740 yeni yoluxma faktı qeydə alınıb, 2442 nəfər müalicə olunaraq sağalıb.** Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 473 459 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 436 537 nəfər müalicə olunaraq sağalıb, 6 327 nəfər vəfat edib, aktiv xəstə sayı 30 595 nəfərdir.

## Azərbaycan tərəfinə keçən iki erməni təhvil verilib



**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Azərbaycan tərəfinin iki mülki erməni geri qaytarması ilə bağlı məlumat yayıb.**

Məlumatda 18 sentyabr 2021-ci il tarixdə yolu azaraq, Qubadlı rayonunun Eyvazlı kəndi ərazisindən Azərbaycan tərəfə keçən Ermənistan vətəndaşları, mülki şəxslər - 19.02.1986-cı il təvəllüdlü Akopyan Hakop Zaveni və 05.06.2001-ci il təvəllüdlü Sarkisyan Aram Qraçiqinin Rusiya sülhməramlılarının vasitəçiliyi ilə 19 sentyabr 2021-ci ildə Ermənistana qaytarıldığı bildirilib.



## "Sarsılmaz qardaşlıq-2021"

Naxçıvanda Azərbaycan və Türkiyə hərbçilərinin birgə təlimi başlayıb

**Azərbaycan və Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Naxçıvanda hər iki ölkənin motoatıcı, xüsusi təyinatlı, komando və müxtəlif qoşun növlərinin iştirakı ilə "Sarsılmaz qardaşlıq-2021" birgə döyüş atışlı taktiki təliminə start verilib.**

Əlahiddə Ümumqoşun Ordudan "Şərq"ə verilən məlumata görə, Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələrinin, Türkiyə Silahlı Qüvvələrinin bölmələrinin cəlb edildiyi təlimdə ənənəyə uyğun olaraq iki qardaş ölkənin dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.

Bayraqdəyişmə mərasimində iştirak etmək üçün Əlahiddə Ümumqoşun Ordunun bayraq taqımı Naxçıvan şəhərindən və eyni zamanda Türkiyə Respublikasının bayraq taqımı da Doğu Bəyazid şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru hərəkətə başlayıb.

Bayraq taqımları "Ümid" körpüsü üzərinə çatdıqdan sonra Türkiyə və Azərbaycanın dövlət himnləri səsləndirilib və bayraqdəyişmə mərasimi keçirilib.

Mərasimin davamı olaraq "Ümid" körpüsündən keçən Türkiyə Silahlı Qüvvələrinin hərbi kolonu təlim rayonu istiqamətində hərəkət edib və qardaş ölkənin hərbi qulluqçuları Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində təntənəli şəkildə qarşılanıb.


№ 170 (5451), 2021-ci il

# ŞƏRQ

Günəş Şərqdən doğur!

Qiyməti 40 qəpik

www.sherg.az

21 sentyabr 2021-ci il (çərşənbə axşamı)


# İran odla oynayır

Sərhəddə hərəkətlilik Tehranın narahatçılığından xəbər verir



## Prezident İlham Əliyev Vladimir Putini təbrik edib

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.**

Bu barədə Prezidentin Mətbuat xidmətindən məlumat verilib.

Dövlətimizin başçısı Rusiya Prezidentini Hakim "Yedinaya Rossiya" Partiyasının parlament seçkilərində qələbə qazanması münasibətilə təbrik etmişdir.

Azərbaycan Prezidenti bu qələbəni Vladimir Putinin rəhbərliyi ilə ölkənin inkişafı və firavanlığına yönəlmiş siyasətə xalq tərəfindən verilən qiymətin təzahürü kimi dəyərləndirmişdir.

Rusiya Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etmişlər.

Söhbət zamanı dövlət başçıları əmin olduqlarını bildirmişlər ki, yeni seçilmiş Dövlət Duması ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələri bundan sonra da davam edəcəkdir.

*Prezident İlham Əliyev Perm şəhərində baş vermiş hadisə nəticəsində həlak olanlarla bağlı Vladimir Putinə başsağlığı vermişdir. Rusiya Prezidenti başsağlığına görə təşəkkürünü bildirmişdir.*



## Azərbaycanın Türkiyə, Pakistanla müttəfiqliyi hərbi ittifaq yaratmaq səviyyəsinə qədər irəliləyib

**Azərbaycanın Türkiyə və Pakistanla birgə hərbi təlimlərindən, Gorus-Qafan yolundakı məlum insidentdən sonra İran Azərbaycanla sərhəddə hərbi təlim keçirməyə qərar verib.**

Təlimlərə İran İnqilab Keşikçiləri Korpusunun (SEPAH) da cəlb ediləcəyi bildirilib. Culfa-Aslandüz-Muğan istiqamətinə hərbi silahlar və texnikanın daşınması davam edir. Hərbi təchizatlar arasında İran istehsalı olan "Tufan" zirehli hərbi maşını da gözə dəyib. Vurğulanır ki, Azərbaycanın Gorus-Qafan yolunda nəzarət-buraxılış məntəqəsi qurması və iranlı sürücülərin Xankəndiyə qanunsuz yük daşımalarının qarşısının alınması cənub qonşumuzda hiddətlə qarşılanıb. Hətta din xadimləri başda olmaqla bir sıra siyasilər Azərbaycanı təhdid etməyə başlayıblar. Əfsuslar ki, İranın Azərbaycana qarşı uzun illərdir yürütdüyü ikiüzlü siyasətin şahidi olmaqdayıq. Tehran rejimi heç zaman güclü Azərbaycan görmək istəməyib.

(səh.3)



## Azərbaycan və Fransa minatəmizləməyə dair sənəd imzalayacaq

**Sentyabrın 20-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb.**

Bu barədə "Şərq"ə ANAMA-dan məlumat verilib.

Görüş zamanı işğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları barədə fikir mübadiləsi aparılıb.

Səfirin başlıca məqsədi Fransa Respublikasının Azərbaycanda icra edilən minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyinin ayrılması və bu sahədə dəstəyin istiqamətləri müzakirə olunub.

Yaxın gələcəkdə iki tərəf arasında minatəmizləmə əməliyyatlarına dəstək, eləcə də minadan zərərçəkənlərə yardım, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə layihələri kimi sahələri özündə əks etdirən sənədin imzalanması nəzərdə tutulur.



## "Hazır olmalıyıq"

Rəşad Mahmudov: "Payızda ötən ildəkindən daha güclü dalğa gözlənilir"

**"İstənilən dalğanın başlanğıcı olduğu kimi sonu da olur. Sonuncu dalğa təxminən 6-7 həftədir başlayıb və ay yarımdan sonra dalğalar pik həddə çatıb, sonra sönməyə doğru gedir. Bu təkcə Azərbaycan üçün deyil, bütün dünyada belədir".**

Bu sözləri millət vəkili, kardiocərrah Rəşad Mahmudov Baku tv-də "Üzbəüz" verilişində bildirib.

O, qarşıda bizi nələrin gözləyəcəyini deyib.

"Avqust aylarında başlayan yüksəlmədə keçən ilin yayı ilə müqayisə etdikdə, əfsuslar olsun ki, rəqəmlərin 10 dəfə çox olması, bizə gələcək gedişat barədə də açıq-aydın məlumat verir. Yay ayı Azərbaycanda 4000-ü keçən rəqəmlər bizim üçün olduqca yüksəkdir. İndi 1700-ə düşməsi dalğanın enməsini göstərir. Əmin olun ki, bu rəqəmlər günlər keçdikcə daha da düşəcək. Ölüm sayları bir az gec azalır, çünki 2 həftə əvvəl reanimasiyaya düşən xəstələrin arasında itkilər ola bilər.

Adətən, 3-4 aydan bir yeni dalğa olur və bunun yenidən baş verməsi ehtimalı var. Bu hadisələrə səhiyyə və dövlət qurumları kimi, cəmiyyət də, insanlar da hazırlıqlı olmalıdır.

İnsanlar bilməlidir ki, əgər yayda belə bir rəqəmlərlə yoluxma gördüksə, payızda mövsümi olaraq, keçən ildəkinə baxdıqda, 3-4 qat daha artıq rəqəmlərlə qarşılaşa bilərik. Payızda ola biləcək böyük dalğalara hazır olmalıyıq"

## MM-də ölkədə medianın və sosial şəbəkələrin mövcud durumu müzakirə ediləcək

**Milli Məclisdə ölkədə medianın, o cümlədən sosial şəbəkələrin mövcud durumu və yeni inkişaf strategiyası ilə bağlı müzakirə keçiriləcək.**

Bu parlamentin İnsan hüquqları komitəsinin 2021-ci il payız sessiyası üçün iş planına daxil edilib.

(səh.2)

## Uğurlu başlanğıc...

Azərbaycanlılar Amerika siyasətində aktivləşir

**Həmyerlimiz Ramin Məmmədov Şimali Karolinadan ABŞ Nümayəndələr Palatasına namizədliyini irəli sürüb.**

Qeyd edək ki, Ramin Məmmədov Miçiqan ştatının Oakland İcma Kollecində təhsil alıb, Miçiqan Dövlət Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər ixtisasını bitirib. Karyerasına informasiya texnologiyaları sahəsindən başlayan soydaşımız 15 il öncə Şimali Karolina ştatına köçüb.

ABŞ-dakı icmamız həmvətənimizin seçki kampaniyasına maddi dəstək göstərilməsi üçün ianə toplanmasına başlayıblar.

(səh.4)



## Ərdoğan dəhlizlə bağlı güzəştə getməyəcək

*Paşinyan əgər görüş istəyirsə, addımlarını tərəddüd etmədən atmalıdır*

**Ermənistan Baş naziri Nikol Paşinyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan gizli görüş keçirilməsini istəyib. Bunu Türkiyə lideri ABŞ-a səfərdən öncə keçirilən mətbuat konfransında deyib. Paşinyan Ərdoğanla görüşmək üçün Gürcüstanın baş nazirini minnətçi salıb.**

Türkiyə prezidenti isə vurğulayıb ki, Ankara-İrəvan münasibətlərinin qurulması Azərbaycanın istəkləri və tələbləri çərçivəsində mümkün olacaq. Bəyan edib ki, əgər Paşinyan Ərdoğanla görüşmək istəyirsə, bəlli addımlar atmalıdır: "Görüşlərə qapalı deyilik. Gürcüstan baş naziri Ermənistan baş nazirinin görüşməklə bağlı təklifini mənə çatdırıb. Ancaq bunun üçün Ermənistan müsbət addımlar atmalıdır. Bu görüş baş tutarsa, Türkiyə də diplomatik əlaqələrə başlayar. İnşallah, Azərbaycan və Ermənistan arasındakı bu çətinlik dəhlizlərin açılması ilə ortadan qalxar".

(səh.4)

## Tanınmış jurnalist koronavirusa yoluxub

Elnur Əşrəfoğlu süni tənəffüs aparatına qoşulub



**Tanınmış jurnalist Elnur Əşrəfoğlu koronavirusa yoluxub və "Yeni klinika"nın reanimasiya şöbəsinə yerləşdirilib.**

"Yeni klinika"dan APA-ya verilən məlumata görə, Elnur Əşrəfoğlu 4 gündür reanimasiyadadır.

Xəstədə 85 faiz ağciyər tutulması, kəskin tənəffüs çatışmazlığı, böyrək çatışmazlığı müşahidə edilir. Hazırda süni tənəffüs aparatı dəstəyindədir. Saturasiyası 70 faizdir. Ümumi vəziyyəti qənaətbəxş deyil.

# Növbəti görüşə hazırlıq gedir

## Bu dəfə Ərdoğanla Putin müəyyən ortaq məxrəcə gələcəklər



**Aynurə Pənahqızı**

**Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğanın görüşünə hazırlıq gedir.**

**Bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov açıqlama verib. Peskov bildirib ki, Putinlə danışıqlar üçün Ərdoğanın Rusiyaya səfərinin geniş gündəliyi hazırlanır.**

O qeyd edib ki, Rusiya Prezidenti Vladimir Putin və onun türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan ikitərəfli münasibətləri və Suriya problemini müzakirə etməyi planlaşdırırlar: ”Ərdoğanın Rusiyaya işgüzar səfərinə hazırlıq gedir. Gündəlikdə olan məsələlər genişdir, ikitərəfli münasibətlər çoxplanlıdır, prezidentlər üçün hər zaman bu kontekstdə danışmağa mövzu var. Lakin əlbəttə ki, Suriya və digər regional münaqişələr də müzakirə olunacaq”.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən politoloq Məhəmməd Əsədullazadə bildirib ki, Ərdoğan və Putinin görüşü regional kontekstdə Rusiya və Türkiyə arasında müəyyən problemlərin yoluna qoyulması üçündür.** Politoloq əlavə edib ki, Cənubi Qafqazda Türkiyənin artan mövqeyi Rusiyanı müəyyən dərəcədə narahat edir: ”Düşünürəm ki, bu dəfə tərəflər müəyyən ortaq məxrəcə gələcək. Həmçinin, Rusiya bununla Türkiyənin Cənubi Qafqazda, Mərkəzi Asiyada rolunu qəbul etmiş olur. Xüsusilə, Türkiyənin Ukrayna siyasətindən Moskvanın çox ciddi narahatlığı var. Moskva Türkiyənin Ukraynanın model silahlardan təchiz edilməsinə qarşıdır. Ola bilsin ki, bu məsələlər də müəyyən dərəcədə danışıqlar predmeti olsun. Ancaq Türkiyənin Rusiyanın qarşısından geri çəkiləcəyini düşünmürəm. Çünki Türkiyə ilə Rusiyanı iqtisadi əlaqələr daha sıx bağlayır”.

**Politoloq qeyd edib ki, Türkiyə ilə Rusiya arasında enerji, hərbi-texniki, iqtisadi əməkdaşlıq, turizm sahəsində yeni sazişlər bağlana bilər:** ”Düşünürəm ki, müəyyən geosiyasi fikir ayrılıqlarına baxmayaraq, iqtisadi maraqlar hər iki ölkənin dərin böhrana getməsinin qarşısını alacaq. Həmçinin, burada Putin və Ərdoğanın şəxsi əlaqələri də iki ölkəni dərin böhrana yuvarlamamasında əsas şərtdir. Zənnimcə, Zəngəzur dəhlizi ilə bağlı da Rusiya və Türkiyə arasında müzakirələr olacaq və Rusiya Türkiyənin Cənubi Qafqaz siyasəti ilə bağlı müəyyən proseslərə müsbət cavab verəcək, xüsusilə Zəngəzur dəhlizinin açılması ilə bağlı. Çünki Türkiyə bu dəhlizin açılmasında israrlıdır. Görünür, bu danışıqlarda Ərdoğan Putini razı salacaq”.

## Əziz Əlibəyli: “Paşinyan öhdəliklərini icra etmək məcburiyyətindədir”



**Ermənistanın Baş naziri Nikol Paşinyanın mətbuat katibi bildirib ki, İrəvan hökuməti Türkiyə ilə təmaslara başlamağa hazırdır. O, işlər səmərəli olacağı halda, yüksək səviyyədə görüşlərə də hazır olduqlarını bəyan edib.**

# “Türkiyə ilə təmaslar reallaşacaq”

İqtisadi blokadada qalmamaq üçün kommunikasiyaların açılması, qonşu ölkələrlə normal münasibətlərin qurulması olduqca vacibdir. Son zamanlar Paşinyanın da bu yöndə səsləndirdiyi fikirlər diqqət çəkir. Baş nazir xüsusilə Türkiyəyə yönəlik müsbət açıqlamalar verərək qardaş ölkə ilə münasibətləri normallaşdırmaq istəyir.

**Paşinyanın söylədiklərində kifayət qədər səmimi olduğunu deyən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli ”Şərq”ə vurğulayıb ki, onun belə açıqlamalar verməsi üzərinə götürdüyü öhdəliklərə əməl etmək məcburiyyətindən irəli gəlir:**

”Ancaq Ermənistanda elə bir şərait hökm sürür ki, Paşinyan üzərinə götürdüyü öhdəliklərin məsuliyyətini çəkməli olduğunu başa düşür.

Bu baxımdan Ermənistan cəmiyyətinə mesajlar verməyə çalışır.

Yəni ”məcburiyyət nəticəsində belə açıqlamalar etmişəm, ordu müharibədə məğlub olub və bunun nəticəsində müəyyən öhdəliklər ortaya çıxıb”.

Paşinyan həmin öhdəlikləri icra etmək məcburiyyətindədir, amma bir tərəfdən də məsuliyyəti üzərinə götürmək istəmir.

Ona görə də belə yollara əl atır. Ərdoğan onun xarakterini bildiyindən Paşinyanı oyundan kənar vəziyyətə salmaq üçün Gürcüstanın baş naziri vasitəsilə etdiyi yalvarışı açıqladı. Bununla da göründü ki, Paşinyan məcburiyyət qarşısındadır.

Düşünürəm ki, Türkiyə ilə təmaslar reallaşacaq. Çünki Paşinyanın alternativi olmadığını verdiyi bəyanatla bilmiş olduq”.

**Yeganə Bayramova**



## MM-də ölkədə medianın və sosial şəbəkələrin mövcud durumu müzakirə ediləcək

**Milli Məclisdə ölkədə medianın, o cümlədən sosial şəbəkələrin mövcud durumu və yeni inkişaf strategiyası ilə bağlı müzakirə keçiriləcək.**

Bu parlamentin İnsan hüquqları komitəsinin 2021-ci il payız sessiyası üçün iş planına daxil edilib.

*Qeyd edilib ki, sessiya müddətində İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsman) və aparatın, həmçinin Medianın İnkişaf Agentliyinin (MEDİA) iştirakı ilə ölkədə medianın (o cümlədən sosial şəbəkələrin) mövcud durumu və yeni inkişaf strategiyası ilə bağlı müzakirə və dinləmələrin təşkili, diffamasiya ilə bağlı məsələlərin müzakirəsi həyata keçiriləcək.*

## Deputat Kremlə etiraz etdi

### “Rusiya o yaramaz abidəni götürməlidir”



**“Ermənilər Rusiyanın Samara şəhərində ”Artsax” müharibəsində həlak olanlara ”əbədi xatirə” adlı abidə ucaldıblar”.**

Bunu millət vəkili, MCP sədri Razi Nurullayev deyib. Deputat qeyd edib ki, Samarada yaşayan azərbaycanlıların nümayəndələri, diaspora təşkilatları buna sərt etiraz ediblər: ”Soydaşlarımızın göndərdikləri məktuba gələn rəsmi cavab budur ki, şəxsi adam qoyub və dövlətin ona qarışmağa ixtiyarı yoxdur. Əgər belədirsə, biz də Bakının mərkəzində Rusiya separatçılarına, Rusiyanın düşmənlərinə heykəl qoyaq. Dağıstanda və Çeçenistanda öldürülən və Rusiyanın ekstremist, terrorçu adlandırdığı adamlara abidə ucaldaq. Deyək ki, kiminsə ürəyi yanıb və öz şəxsi pulu ilə edib. Rusiyaya səslənirəm, bu xoşunuza gələrmi? Səfirlik və Diaspora Komitəsi bununla bağlı rəsmi və açıq şəkildə Rusiya hakimiyyətinə etirazını bildirməlidir. Mən Milli Məclisin deputatı və Milli Cəbhə Partiyasının rəhbəri kimi kəskin etirazımı bildirirəm. Rusiya tərəfindən o yaramaz abidənin götürülməsini tələb edirəm”.

**İsmayıl**

## Xocalıda mənzillər tikirlər

### “İranın terrorçu rejimə dəstəyi təkcə yük daşımadan ibarət deyil”

**“İran Xocalıda separatçı-terrorçu reyim üçün mənzillər tikir”. Bu barədə ”Şərq”ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, Ermənistan mediası yazır ki, Əsgəranda mənzil inşa olunmasında İran vətəndaşları da iştirak edirlər:** ”Separatçıların ”nümayəndəsi” Artur Qriqoryan İrandan gələnlərin fars olduğunu deyir. Bu təsdiq edir ki, İranın Qarabağda separatçı-terrorçu reyimə dəstəyi təkcə qanunsuz yük daşımadan ibarət deyil. Separatçıların mənzil tikintisində və digər layihələrində İran şirkətləri də iştirak edir. Xankəndinə daşınan qanunsuz yüklər İran şirkətlərinin layihələri üçündür. İran işğal dövründə olduğu kimi indi də separatçı-terrorçu reyimlə əməkdaşlığı davam etdirir”.

**İsmayıl**

# Yaxşı ki, Klaar Ağdama gəldi

## Aİ nümayəndəsinin erməni vəhşiliklərini öz gözləri ilə görməsi və dolğun məlumat alması çox vacibdir

**İsmayıl Qocayev**

**Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar işğaldan azad olunmuş ərazilərə səfər edib. Qonaq Ağdama səfər çərçivəsində Pənahəli xanın İmarət kompleksində olub, ermənilərin kompleksin ərazisində törətdiyi vandallıq əməllərinin şahidi olub.**



Ağdam şəhərinin xüsusi nümayəndəsi Emin Hüseynov ermənilərin işğal altında saxladığı Azərbaycan ərazilərində, o cümlədən Ağdamda mədəni, tarixi və dini abidələrini dağıtdığını, evləri, inzibati binaları, muzeyləri və digər sosial obyektləri yerlə-yeksan etdiyini bildirib. Məlum olduğu kimi Klaar bundan öncə Ermənistanda səfərdə olub və rəsmilərlə görüşüb. Məsələ ondadır ki, Aİ-nin Azərbaycana qərəzli münasibəti, dəfələrlə ədalətsiz mövqe sərgiləməsi və sonuncu səfərin Bakıdan öncə İrəvana edilməsi ölkə ictimaiyyətinin narazılığına səbəb olub. Avropa İttifaqının müvafiq nümayəndəlikləri ermənilərin işğalçılıq və vandalizm siyasətindən xəbərdar olsalar da, bu həqiqətləri dilə gətirməkdən yan qaçıblar. O baxımdan sözügedən qurumun obyektiv yanaşma ortaya qoyacağı az ehtimal edilir.

**Aİ rəsmisinin Qarabağa səfəri ilə bağlı ”Şərq”ə danışan İnformasiya Təşəbbüslərinə Dəstək İB-nin sədri, ”QHT.az” saytının rəhbəri Cəsarət Hüseynzadə deyib ki, uzun müddət Avropa İttifaqının nümayəndəsi T.Klaarın regiona səfərləri, nümayəndələrlə görüşləri ilə bağlı mütəmadi qərəzli addımlar atılıb.** Birlik rəhbəri vurğulayıb ki, Azərbaycan tərəfi ciddi mövqeyini ən ali səviyyədə nümayiş etdirərək həmin məqamlara öz etirazını bildirib: ”Bəzi beynəlxalq təşkilatların ötən dövrdə işğalçı ilə işğala məruz qalan tərəf arasında fərq qoymaması onların missiyasına kölgə salırdı. Hələlik bu münasibətin dəyişməsinin şahidi olmuruq. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar işğaldan azad olunmuş ərazilərə səfəri zamanı öz gözü ilə ermənilərin törətdiyi vandallıq əməllərinin şahidi olsa da, bu qurumlar öz hesabatlarında bu kimi faktları qeyd etmirlər. Bütün bunlara baxmayaraq, nüfuzlu qurum rəsmilərinin Azərbaycana səfərini və ələlxüsus işğaldan azad edilmiş Ağdama və digər ərazilərə getmələri önəmlidir. Orada erməni vəhşiliklərini öz gözləri ilə görmələri və əlavə məlumatlar almaları çox vacibdir”.

C.Hüseynzadə bəyan edib ki, xarici nümayəndələrin Qarabağa səfərlərinin təşkil olunması nəticəsində qərəzli olmayan əcnəbilərdə kifayət qədər dolğun məlumatlar formalaşdıra bilirik: ”Həmçinin, həmin şəxslər öz ölkələrində və təmsil etdiyi qurumlarda erməni vandalizmi haqqında dolğun informasiya verirlər. Bütün hallarda beynəlxalq təşkilatların erməni vandalizmini yerindəcə müşahidəsi zəruridir. Əgər təşkilatlar obyektiv mövqe sərgiləməkdən imtina edərlərsə, səfərlərin monitorinqini apararaq, gələcəkdə həmin qurumların qərəzli mövqeyini ifşa edərik”.

# "Az qala yarışa çıxıblar"

## Elçin Mirzəbəyli: “Elə media təsisatları var ki, Ermənistan gündəmindən xəbər daşıyır...”

**”Ermənistanın ”Qrapark” qəzetinin, daha sonra isə sözügedən nəşrə istinadən bütün erməni mediasının “Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi ətrafında Rusiyanın paytaxtında aparılan danışıqlar”la bağlı tirajladığı məlumat, əsasən ictimai rəyin öyrənilməsinə xidmət edir”.**

**Bu sözləri “Xalq cəbhəsi” qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli deyib. O qeyd edib ki, sözügedən məlumatda Ermənistan tərəfinin ”artıq başa çatmış danışıqların nəticəsindən çox razı qaldığı” bildirilir**. Eyni zamanda vurğulanır ki, ”görünür, SSRİ-nin inzibati xəritələri əsasında, ”Artsax”ın (ermənilərin kompakt yaşadığı və Rusiya sülhməramlılarının müşahidəsi altında olan Azərbaycan əraziləri) statusuna toxunulmadan delimitasiya və demarkasiya prosesinin başlanılmasına dair razılıq əldə olunub: ”Rusiya sülhməramlılarının Azərbaycan ərazilərindəki mövcudluğunu təmin edən 5 illik müddətlə bağlı məhdudiyyət aradan qaldırılıb və sülhməramlı missiyanın ”mandatı” qeyri-müəyyən vaxta kimi uzadılıb”. Göründüyü kimi, ”ermənilərin razı qaldığı nəticələrə” görə, ”status” cəhənnəmin dibindəcə qalır, sərhədlərin delimitasiya və demarkasiya prosesi isə SSRİ-nin xəritələrindəki inzibati ərazi bölgüsünə əsasən aparılır. ”Xəbər”in bu hissəsi çox güman ki, Ermənistanın ictimai rəyinin öyrənilməsinə və obyektivlik görüntüsünün yaradılmasına hesablanıb. Rusiya sülhməramlılarının Azərbaycan ərazilərində qeyri-müəyyən vaxta qədər qalacaqları barədə razılığın əldə olunması ilə bağlı iddia isə istisnasız olaraq Azərbaycanın ictimai rəyinə ötürülmək üçün düşünülüb. Məqsəd ictimai rəydə çat yaratmaqdan ibarətdir”.

*E.Mirzəbəyli, həmçinin yayılan saxta xəbərlərdən də söz açıb:* ”Məlum ”xəbər”də Zəngəzur dəhlizi ilə bağlı irəli sürülən iddialar da dezinformasiya xarakterlidir. Çünki ”xəbər”də öncə azərbaycanlıların fərdi qaydada bu yoldan istifadə üçün müəyyən vəsait ödəyəcəkləri qeyd olunduğu halda daha sonra konkret məbləğdən - Azərbaycan tərəfindən hər il Ermənistana ödəniləcək 150 milyon ABŞ dollarından söz açılır. Bu isə Zəngəzur dəhlizindən istifadə ilə bağlı bir-

### “Amma bunun əksi baş verməlidir. Ölkəmizin maraqları və informasiya təhlükəsizliyimiz bunu tələb edir”

biri ilə ziddiyyət təşkil edən iki fərqli yanaşma olmaqla bərabər açıq-aşkar nəzərə çarpan məntiqsizliyi də ortaya qoyur: Bəlkə Azərbaycan, ümumiyyətlə, bu dəhlizdən istifadə etməyəcək? Digər tərəfdən, sual olunur, bəs Ermənistan Azərbaycan ərazisindən keçən kommunikasiyalardan istifadəyə görə hər il ölkəmizə nə qədər vəsait ödəyəcək? Doğrusunu deyim, əsasən dezinformasiya və təbliğat xarakterli tezislərdən ibarət olan materialdan daha çox məni narahat edən, Ermənistanın ”beyin mətbəxləri”ndə ”bişirilən” bu ”xəbər”in Azərbaycan oxucusunun ”menyusuna” olduğu kimi, şərh edilmədən təqdim olunmasıdır”.



**Politoloq qeyd edib ki, yanlış ”xəbərlər” olduğu kimi Azərbaycan mediasında tirajlanır. Bundan bir neçə saat sonra isə, əsasən səthi və tələsik yanaşmalardan ibarət olan şərhlər yayımlanır:** ”Bununla da mediamızın gündəminin Ermənistan tərəfindən ötürülən dezinformasiyalarla zəbt edilməsinə imkan yaradırıq. Son cümlələrim təkcə ”sülh danışıqları” barədə iddiaların əks olunduğu məlum ”xəbər”lə bağlı deyil... Hər gün Ermənistan mediasının gündəmindən Azərbaycanın gündəminə saysız-hesabsız, əksəriyyəti təbliğat, təxribat xarakterli olan ”xəbər”, ”şərh” daşıyırıq. Çoxsaylı media təsisatları var ki, Ermənistanın gündəmindən xəbər daşımaq üçün, az qala, yarışa çıxıblar. Amma bunun əksi baş verməlidir. Ölkəmizin maraqları və informasiya təhlükəsizliyimiz bunu tələb edir”.

**İsmayıl**



"Bizə qarşı hücumların qarşısını almağın yeganə yolu türk-islam dünyasının güclənməsidir. Bu birliyin başında dayanmağa qadir ölkə isə Türkiyədir"

# ABŞ səfərində mühüm mesajlar səsləndi

## Ərdoğan dünyada islama qarşı aparılan ayrı-seçkiliyi, hücumları sərt qınayır

İsmayıl Qocayev

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirak etmək üçün ABŞ-a səfər edib. Üç gün davam edəcək səfərdə Türkiyə lideri BMT iclasının ilk günündə çıxış edəcək. İclas "Covid-19" pandemiyasının qarşısının alınması, dayanıqlığın inkişafı və insan hüquqlarına hörmət kimi mövzulara həsr edilib. Ərdoğan səfər çərçivəsində Nyu-Yorkda türk icması ilə görüşüb.**

Türkiyə-Amerika İstiqamətləndirmə Komitəsinin təşkilatçılığı ilə baş tutan görüşdə çıxış edən dövlət başçısı iki ildən sonra bir araya gəlməkdən məmnun olduğunu dilə gətirib.

Ərdoğan son iki ildir davam edən koronavirus epidemiyasına toxunaraq bildirib ki, təhsildən səhiyyəyə, ticarətdən məşğulluğa qədər hər sahədə ciddi çətinliklər çəkilir. Onun sözlərinə görə, "Covid-19" epidemiyası qlobal sistemdəki ədalətsizlikləri, bərabərsizlikləri açıq-aşkar ortaya qoydu. Lakin insanlıq



"Covid-19" virusundan daha ölümcül və məkrli bir virusla mübarizə aparmaqdadır. Ərdoğan həmin virusun adının islamafobiya olduğunu söyləyib: "İllərlə demokratiyanın və azadlıqların beşiyi olaraq nümunə göstərilən ölkələrdə bu virus çox sürətlə yayılır. Ksenofobiya və islam düşmənçiliyi hazırda artıq siyasəti əsir götürüb. Müsəlmanların gündəlik həyatını çətinləşdirən və dövlət siyasətini formalaşdıran sosial sülhü təhdid edən dağıdıcı bir tendensiyaya çevrilib".

Ərdoğan Nyu-York şəhərində 2017-ci ildə təməli qoyulan "Türk evi" binasının açılışını da edib. Pandemiya səbəbindən açılışı təxminən bir il gecikən "Türk evi" binası Nyu-Yorkun ən nüfuzlu yerlərindən birində, BMT-nin baş qərargah binasının qarşısında yerləşir. Binada Türkiyənin BMT-dəki Daimi Nümayəndəliyi və Nyu-Yorkdakı Baş Konsulluğu yerləşəcək. Səfər əsnasında Türkiyə prezidentinin bir sıra ölkə rəhbərləri, o cümlədən BMT baş katibi Antonio Quterreşlə görüşü də gözlənilir.

**Ərdoğanın Amerikaya səfəri və türk icması ilə görüşünü "Şərq"ə dəyərləndirən AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli deyib ki, Ərdoğan daim müsəlman dünyası, ümumiyyətlə, bəşəriyyət üçün çox önəmli mesajlar səsləndirir. Partiya təmsilçisi qeyd edib ki, islam dini geniş yayılmağa başlayandan bu haqq dinə və mənsublarına qarşı ayrıseçkilik, açıq hücumlar müşahidə olunub:** "İslamafobiyanın qol-qanad açdığı məkanlardan biri Amerikadır. Bu ölkədə iqrçilik də güclüdür. Ərdoğan məhz bu səbəbdən həmin ölkədə islam aləmi və türklərlə bağlı mesajlar verib, buna qarşı mübarizə aparacaqlarını bildirib. Haqlı olaraq vurğulayıb ki, "Covid" virusu nə zamansa həyatımızdan çıxacaq, ancaq əsrlərdir davam edən islamafobiya virusundan qurtulmaq çox çətindir. Səbəbi isə odur ki, bu virusun yayılmasında maraqlı olan qüvvələr var. Qərb ölkələri tarixən irqçi olublar, islam aləminə, türklərə nifrət bəsləyiblər. Ərdoğanın ABŞ-a səfəri fonunda türk icması ilə görüşü və bu cür ifadələr səsləndirməsi mühümdür. Bizə qarşı hücumların qarşısını almağın yeganə yolu türk-islam dünyasının güclənməsidir. Bu birliyin başında dayanmağa qadir ölkə isə Türkiyədir".

# "Rus gəmisinin Xəzərdə lövbər salmasında problem yoxdur"



## Elxan Şahinoğlu: "Əslində bu səfər daha çox dostluq ziyarəti sayılır"

**Xəbər verdiyimiz kimi, Rusiyanın Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Astraxan" və "Anatoli Qujvin" hərbi gəmiləri qeyri-rəsmi dostluq səfəri ilə sentyabrın 18-də Bakıya gəliblər. Səfər sona çatıb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, səfər çərçivəsində gəmi heyətlərinin Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri komandanlığı tərəfindən qəbulu, eyni zamanda iki ölkənin hərbi donanmaları arasında hərbi əməkdaşlığın müzakirəsi baş tutub. Bundan başqa mədəni və tarixi abidələrlə tanışlıq üçün gəmi heyətlərinin Bakı şəhərində gəzintisi, o cümlədən voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

**Səfərlə bağlı "Şərq"ə danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib ki, Rusiyanın hərbi gəmiləri ara-sıra Azərbaycan limanında lövbər salırlar. Onun sözlərinə görə, bu səfərdə elə də böyük bir problem yoxdur:** "Düzdür, Rusiyanın siyasətindən narazılığımız var. Buna baxmayaraq, Rusiya qonşu dövlətdir və müəyyən təmaslarımız davam edir. Rus gəmilərinin Azərbaycan limanına gəlməsi o demək deyil ki, Kremllə hərbi təlimlər keçiririk. Əslində bu səfər daha çox dostluq ziyarəti sayılır. Başqa limanlara da gedə bilirlər,



hətta Rusiyaya rəqib olan ölkələrdə də lövbər salırlar.

Rus gəmiləri bu dəfə lövbər salarkən milli marşımızla qarşılandılar. Lakin bütün bunlar Rusiya ilə hərbi əməkdaşlığı genişləndirməyimiz demək deyil. Son illər Rusiyadan hərbi texnika da almırıq. Bunun özü də rəsmi Moskvaya bir mesajdır.

Gəmilərin lövbər salması üçün uzaqgörən nəticə çıxarmağın əleyhinəyəm. Bu səfər cəmiyyətimizdə böyük reaksiya da doğurmadı. Müharibə və ondan sonrakı proseslər göstərir ki, ölkəmizin əsas hərbi, siyasi və strateji müttəfiqi Türkiyədir.

Bu günlərdə Azərbaycanın Xəzərdə dəniz qüvvələrinin gücünün artırılması və modernləşməsində Türkiyə ilə birgə hərbi təlimlər oldu. Qardaş ölkə hətta bu istiqamətdə bizə dəstək verdi".

**Yeganə Bayramova**

# İran odla oynayır

## Sərhəddə hərəkətlilik Tehranın narahatçılığından xəbər verir



### Azərbaycanın Türkiyə, Pakistanla müttəfiqliyi hərbi ittifaq yaratmaq səviyyəsinə qədər irəliləyib

**Azərbaycanın Türkiyə və Pakistanla birgə hərbi təlimlərindən, Gorus-Qafan yolundakı məlum insidentdən sonra İran Azərbaycanla sərhəddə hərbi təlim keçirməyə qərar verib. Təlimlərə İran İnqilab Keşikçiləri Korpusunun (SEPAH) da cəlb ediləcəyi bildirilib. Culfa-Aslandüz-Muğan istiqamətinə hərbi silahlar və texnikanın daşınması davam edir. Hərbi təchizatlar arasında İran istehsalı olan "Tufan" zirehli hərbi maşını da gözə dəyib. Vurğulanır ki, Azərbaycanın Gorus-Qafan yolunda nəzarət-buraxılış məntəqəsi qurması və iranlı sürücülərin Xankəndiyə qanunsuz yük daşımalarının qarşısının alınması cənub qonşumuzda hiddətlə qarşılanıb. Hətta din xadimləri başda olmaqla bir sıra siyasilər Azərbaycanı təhdid etməyə başlayıblar.**

Əfsuslar ki, İranın Azərbaycana qarşı uzun illərdir yürütdüyü ikiüzlü siyasətin şahidi olmaqdayıq. Tehran rejimi heç zaman güclü Azərbaycan görmək istəməyib. İranın istər Vətən müharibəsindən əvvəl, istərsə də sonra Azərbaycana qarşı tutduğu mövqedə hər zaman qısqanclıq və qərəz müşahidə etmişik. Torpaqlarımızı işğal edən Ermənistana hər cür dəstək verib. 30 ildə bütün imkanlarından istifadə edib ki, ərazilərimiz erməni işğalından azad olmasın. Hətta 1992-ci ilin may ayında Qarabağ məsələsində "vasitəçi" kimi çıxış edərək Şuşanın Ermənistan tərəfindən işğalına şərait yaradıb. Cənub qonşumuz Zəngəzur dəhlizinin açılmasına da birbaşa əngəl törədir. Ən əsası isə odur ki, islam dinindən sui-istifadə edərək Azərbaycan gənclərini xurafata sürükləyir. Azərbaycanın daxilində də fars rejimini dəstəkləyən "mollalar" mövcuddur. Lakin bütün bunlara rəğmən, Azərbaycan heç vaxt İran əleyhinə aparılan siyasətdə yer almayıb. Tarixi köklərə əsaslanan dostluq və qonşuluq münasibətlərinə sadiq qalmışıq. Təbii olaraq, müsəlman İrandan da gözləntimiz ədalətli davranması və qonşuluq prinsiplərinə uyğun addım atmasıdır.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə vurğulayıb ki, İranın Azərbaycanla sərhəddə olan Aslandüz-Horadiz istiqamətində çoxlu sayda hərbi texnika, canlı qüvvə, aviasiya vasitələri ilə hərbi təlimlər keçirməsi hərbi güc nümayişindən daha çox böyük narahatlığın təzahürləridir:** "Hər bir dövlət öz təhlükəsizliyinin təmini üçün təlimlərə ehtiyac duyur. Amma indi İranın təlimlər keçirməsi, bunu Azərbaycanla sərhəd zolağında etməsi Tehranın əsl məramını üzə çıxarır. Tehranın narahatlığının səbəbləri var. Azərbaycan İranla Ermənistanın nəqliyyat arteriyasına - Gorus-Qafan yoluna post yerləşdirib. Ərazimizdən keçən İran avtomobilləri yoxlanılır, onların apardığı yüklərin təyinatı dəqiqləşdirilir. Əgər təxribat varsa, dərhal tədbir görülür. Birinci amil Azərbaycanın iqtisadi rıçaqlarını gücləndirir və Bakı Tehran üzərində iqtisadi təzyiq mexanizmi qazanır, İrəvanı isə dalana dirəyir. Digər tərəfdən İran Azərbaycan-Türkiyə-Pakistanın keçirdiyi birgə təlimlərdən dərin qorxuya düşüb. İran ali rəhbərinin Ərdəbil üzrə nümayəndəsi Seyid Həsən Amili də bu narahatlığı izhar etdi. Tehranın mövqeyini dilə gətirən hədə dolu açıqlama verdi".

**Ekspertin sözlərinə görə, İran Azərbaycanın İsrail, Türkiyə və Britaniya ilə dərinləşən əməkdaşlığını, bunun fonunda Ermənistanla dövlət sərhədində yeni zolaq yaratmasını həzm edə bilmir:** "İranın polis komandanı Hüseyn Əştəri avqustun sonları, sentyabrın əvvəllərində Azərbaycanla sərhədin yolunu "ağartmışdı". Tez-tez də iqtisadi əlaqələr termininin arxasında gizlənərək "İranın bütün sərhədləri təhlükəsizdir" bəyanatını səsləndirirdi. Bir daha əmin oluruq ki, Əştərinin sərhəd səfərləri birbaşa öz nöqteyi-nəzərindən kəşfiyyat məlumatları toplamağa hesablanıbmış. Bir müddət sonra Seyid Həsən Amili isterika içərisində, Azərbaycan və Türkiyənin qonşuluq hüququna hörmət etmədiyini, SEPAH-ın təlim keçirəcəyini bildirdi. Azərbaycanda kifayət qədər müasir silahlar, o cümlədən beşinci nəsil silahlar, hava hücumundan müdafiə sistemləri, zərbə və kamikadze dronları, peşəkar ordu, xüsusi təyinatlı qüvvələr mövcuddur. Amilinin ən son istinad yeri ölkəsinin ballistik raketləri ola bilər, amma unutmamalıdır ki, Azərbaycanda da ballistik raketlər mövcuddur. Üstəgəl, Azərbaycanın Türkiyə, Pakistan kimi strateji müttəfiqləri var və bu münasibətlər hərbi ittifaq yaratmaq səviyyəsinə qədər irəliləyib".

*A.Kərimov vurğulayıb ki, Ankara və İrəvanın bir-birinə isti mesajlar göndərməsini də Tehranın narahatlıqlarının səbəbləri sırasına əlavə edə bilərik:* "Ermənistan Türkiyə ilə normal qonşuluq münasibətləri yaratmaq istədiyini bəyan edib. Hətta Baş nazir Nikol Paşinyan Rəcəb Tayyib Ərdoğanla görüş də istəyir. Ankara isə Azərbaycan amilini, Zəngəzur dəhlizinin açılmasını şərt kimi irəli sürərək Ermənistanla münasibətlərin normallaşmasını məqbul sayır. Ermənistanın məcbur qalıb Türkiyəyə yön alması gələcəkdə İranın regiondakı əsas partnyoru ilə əlaqələrinin zəifləməsinə gətirib çıxara bilər. İndi İranda bunun üzərində də baş sındırırlar..".

**İsmayıl Qocayev**



# İranla Rusiya eyni nöqtəyə vurur

## Vasif Əfəndiyev: "Lakin bölgədə güclü Azərbaycan və Türkiyə reallığı var"

**Rusiya Müdafiə Nazirliyi erməni tərəfinə istinadən növbəti dəfə yalan informasiya yayıb. Nazirliyin rəsmi saytında qeyd olunub ki, guya, sentyabrın 17-də Azərbaycan ordusunun bölmələri tərəfindən atəş açılması nəticəsində Şuşa istiqamətində 2 erməni silahlısı yaralanıb.**

Azərbaycan Müdafiə Nazirliyindən verilən məlumata görə, yayılan söz-söhbətlə bağlı Azərbaycan tərəfinin və Rusiya sülhməramlı kontingentinin birgə iştirakı ilə araşdırılma aparılıb. Nazirliyin Mətbuat Xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov bildirib ki, nəticə etibarilə, qeyd olunan tarixdə və göstərilən istiqamətdə bölmələrimiz tərəfindən hər hansı atəşin açılmadığı təsbit olunub: "Hər iki tərəfin iştirakı ilə araşdırılmış məlumatın sonradan tamamilə əks formada təqdim edilməsi anlaşılan deyil. Azərbaycan tərəfi ölkəmizin qanunlarına uyğun olaraq bölgədə sabitliyin təmin edilməsi və mümkün təxribatların qarşısının alınması istiqamətində səylərini davam etdirir". Xatırladaq ki, Rusiya tərəfi bir neçə dəfə bənzər təxribatlara əl atıb. Bir müddət əvvəl dövlət qurumunun rəsmi saytında "Dağlıq Qarabağ Respublikası" ifadəsi yer almışdı.

**Kremlin söz oyunlarını "Şərq"ə təhlil edən Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib ki, Rusiya sülhməramlılarının konkret beynəlxalq statusu olmadığı üçün bölgədə qeyri müəyyənlik mövcuddur. Analitik bildirib ki, razılaşmaya əsasən, 5 ilin tamamında sülhməramlılar Qarabağı tərk etməyə məcburdur:** "Böyük ehtimalla bu tələbi ilk növbədə Azərbaycan qoyacaq. Rusiyanın Qarabağla bağlı



fərqli planlarının olması sirr deyil. Moskva Cənubi Qafqazdan çəkilmək istəmir və daimi qalmaq üçün təxribatlara belə əl atacağını gizlətmir. Rusiyaya məxsus həm dövlət, həm də "müstəqil" hesab olunan informasiya şəbəkələri mütəmadi olaraq təhrif edilmiş məlumatları dövriyyəyə buraxırlar. Üzücü olsa da, etiraf etməliyik ki, Rusiya bu istiqamətdə tək hərəkət etmir. Yaxın qonşumuz İranla eyni nöqtəyə vururlar. Hazırda İran cənub sərhədlərimizdə 70-ci illərdən qalmış hərbi texnikalarını nümayiş etdirir. Lakin bölgədə güclü Azərbaycan və Türkiyə reallığı var. Nikol Paşinyanın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana müraciət edərək görüşmək istəməsi pozitiv hadisələrin baş verə biləcəyinə işarədir. Paşinyan anlayır ki, Rusiya Ermənistanın gələcəyi üçün müsbət heç nə vəd etmir. Ən azından gördü ki, Kreml ən lazımlı anda erməniləri tək qoydu. Türkiyə və Azərbaycanla sülh şəraitində yaşamaq Ermənistan üçün böyük gələcək vəd edir. Paşinyan bunu nə qədər tez reallaşdırmağa çalışarsa, bizim iştirakımızla regionda əbədi və dayanıqlı sülh yaranacaq".

**İsmayıl**

# Ərdoğan dəhlizlə bağlı güzəştə getməyəcək



## Paşinyan əgər görüş istəyirsə, addımlarını tərəddüd etmədən atmalıdır

İsmayıl Qocayev

**Ermənistan Baş naziri Nikol Paşinyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandan gizli görüş keçirilməsini istəyib. Bunu Türkiyə lideri ABŞ-a səfərdən öncə keçirilən mətbuat konfransında deyib. Paşinyan Ərdoğanla görüşmək üçün Gürcüstanın baş nazirini minnətçi salıb.**

Türkiyə prezidenti isə vurğulayıb ki, Ankara-İrəvan münasibətlərinin qurulması Azərbaycanın istəkləri və tələbləri çərçivəsində mümkün olacaq. Bəyan edib ki, əgər Paşinyan Ərdoğanla görüşmək istəyirsə, bəlli addımlar atmalıdır: "Görüşlərə qapalı deyilik. Gürcüstan baş naziri Ermənistan baş nazirinin görüşməklə bağlı təklifini mənə çatdırıb. Ancaq bunun üçün Ermənistan müsbət addımlar atmalıdır. Bu görüş baş tutarsa, Türkiyə də diplomatik əlaqələrə başlayar. İnşallah, Azərbaycan və Ermənistan arasındakı bu çətinlik dəhlizlərin açılması ilə ortadan qalxar". Ekspertlərin fikrincə, Türkiyə prezidentinin Paşinyanın "siqnal"larına bu cür cavabı gözlənilən idi. Paşinyan vaxtaşırı olaraq Türkiyə ilə "müsbət siqnallar"dan danışır və İrəvan-Ankara arasında münasibətlərin normallaşmasından söz açır. Lakin yaxşı bilir ki, Ərdoğan dəhlizlə bağlı güzəştə getməyəcək. Ümumiyyətlə, Türkiyənin Ermənistan tərəfi ilə hər hansı şərtsiz yaxınlaşmasından söz gedə bilməz. Türkiyənin özündə də başa düşürlər ki, uğursuz diplomatiyanı təkrarlamağın mənası yoxdur. Zəngəzur dəhlizi olmadan Ermənistanla münasibətlər Türkiyəyə heç bir perspektiv vəd etmir. Ərdoğanın da qeyd etdiyi kimi Ermənistan hökuməti beynəlxalq arenada hüquqi subyekt kimi çıxış etmək üçün, ilk növbədə özünün qonşuluq siyasətinə redaktələr etməlidir. Türkiyə və Azərbaycana qarşı ittihamlara və saxta "soyqırım" iddialarına son verməli, Zəngəzur dəhlizi ilə bağlı addım atılmalıdır. Bu arada Nikol Paşinyanın mətbuat katibi Mane Gevorkyan da bildirib ki, Ermənistan hökuməti Türkiyə ilə təmaslara başlamağa hazırdır. Gevorkyan deyib ki, yüksək səviyyədə kontaktların baş tutması üçün işçi diskussiyalar olmalıdır: "Ermənistan və Türkiyənin rəsmi şəxsləri arasında hələlik heç bir təmas olmayıb. Halbuki, Ermənistan hökuməti belə təmaslara, yüksək səviyyəli görüşlərə hazırdır".

**Paşinyanın təklifini və Ərdoğanın cavabını "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadə bildirib ki, Ermənistanın baş naziri mövcud vəziyyəti dəyişmək niyyətindədir. Ən azından Türkiyə prezidentinin mövqeyini öyrənmək arzusundadır:** "Sözsüz ki, Paşinyanın normallaşma cəhdlərinə həm ölkə daxilində, həm də ölkə xaricində müqavimət olacaq. Ancaq proseslər daha çox Paşinyanın siyasi iradəsindən asılıdır. Baş nazir seçkilərdə kifayət qədər səs toplamaqla legitim hakimiyyət qazanıb. Məqsədlərinə çatmaq üçün cəsarətli addım ata bilər. Amma cəsarətli addım atmağa da cəsarət lazımdır. Reallıq odur ki, Paşinyan öz davranışlarından dolayı qeyri-ciddi siyasi oyunçu təsiri bağışlayır. Ərdoğan ilk növbədə erməni baş nazirin təklifini ona görə qəbul etmir ki, Paşinyan ciddi tərəf-müqabili deyil. İkili danışıqlarda ciddi tərəfdaş sayılmır. Xatırlayırsızsa, Paşinyan bizim prezidentlə də görüşmək niyyətini ortaya qoymuşdu. Təbii ki, baş nazir görüşün Moskvanın, yaxud digər üçüncü tərəfin vasitəçiliyi ilə reallaşmasını istəyirdi. Rəsmi Bakı yaxşı bilir ki, əksər hallarda İrəvanın görüş istəyi təxribatçılıq xarakteri daşıyır. Azərbaycan rəhbərliyi fərqindədir ki, Paşinyan müstəqil qərar qəbul etmək iqtidarında deyil. Hansısa addım ərəfəsində Kremllə, yaxud Fransa ilə mütləq məsləhətləşməlidir. Öz sözünə cavabdeh olmayan, əksər fikirləri ziddiyyətli olan bir şəxs ciddi siyasi fiqur ola bilməz. Ortada təkliflər var, amma reallaşması üçün əlverişli zəmin yoxdur. Ərdoğan o baxımdan qeyd edir ki, əgər Paşinyan səmimi və cəsarətlidirsə, öncə bunu sübut etməlidir. Paşinyan üzərinə düşən addımları tərəddüd etmədən atmalıdır ki, onunla gələcəkdə hansısa müzakirələr aparılsın. Əks halda erməni baş nazir Türkiyə lideri ilə nəyin söhbətini edəcək?!".



## Ramin Məmmədov ABŞ Nümayəndələr Palatasına namizədliyini irəli sürüb

# Uğurlu başlanğıc...

## Azərbaycanlılar Amerika siyasətində aktivləşir

Aynurə Pənahqızı

**Həmyerlimiz Ramin Məmmədov Şimali Karolinadan ABŞ Nümayəndələr Palatasına namizədliyini irəli sürüb. Qeyd edək ki, Ramin Məmmədov Miçiqan ştatının Oakland İcma Kollecində təhsil alıb, Miçiqan Dövlət Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər ixtisasını bitirib. Karyerasına informasiya texnologiyaları sahəsindən başlayan soydaşımız 15 il öncə Şimali Karolina ştatına köçüb.**

ABŞ-dakı icmamız həmvətənimizin seçki kampaniyasına maddi dəstək göstərilməsi üçün ianə toplanmasına başlayıblar.

**Həmyerlimiz Ramin Məmmədovun Şimali Karolinadan ABŞ Nümayəndələr Palatasına namizədliyini irəli sürməsinin çox müsbət hal olduğunu deyən politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, bu, azərbaycanlıların Amerika siyasətində aktivləşmə prosesidir.** Politoloq diqqətə çatdırıb ki, əslində Amerika siyasətində namizədlik verilən dövrdə seçilmək çox önəmli deyil, əsas məsələ aktiv siyasətdə olmaqdır: "Bu cür aktiv siyasətlə bağlı bizim Avropadakı diasporalarımızda uğurlu nümunələrimiz var. Məsələn, Hollandiya Parlamentində, İsveç, Skandinaviya bələdiyyələrində fəaliyyət göstərən nümayəndələrimizi misal göstərə bilərik. Həmin ölkələrdə Azərbaycan əsilli vətəndaşlarımız bələdiyyə üzvlüyünə, fərqli şuralara seçiliblər. Əlbəttə ki, bu cür uğurların davam etməsi bizim üçün sevindirici haldır. Ancaq burda bir neçə faktora diqqət yetirmək lazımdır. Birincisi odur ki, Şimali Karolina nisbətən az əhalisi olan ştatlardandır və belə ərazilərdə siyasi müstəviyə daxil olmaq adətən daha rahat olur. Çünki burada əhali daha az olur, yəni orda müəyyən fəaliyyət göstərməklə, seçilmək mümkündür. Üstəlik, əgər namizəd həmin ərazidə tanınırsa və onun xoş reputasiyası varsa, o insanların adətən Nümayəndələr Palatasına seçilməsində elə də problem olmur. Biz bir çox etnik, milli, irqi azlıqların seçilməsinin şahidi olmuşuq. Digər tərəfdən Ramin Məmmədov ABŞ Nümayəndələr Palatasında seçilməsə belə, bu öz-özlüyündə atılmış mühüm addımdır. Bu azərbaycanlıların Amerika siyasətində aktivləşmək prosesidir, yəni artıq Amerika vətəndaşları kimi aktiv siyasətdə rol alma istəyidir. Bu dəfə alınmasa belə, həmyerlimiz bir neçə dəfə bu cür cəhd eləsə, əlbəttə ki, bunlardan biri alınacaq. Mən adətən ermənilərin Amerika siyasətində inkişaf etmə perspektivinə fikir verirəm. Onlar necə edirlər? Başlayırlar brauşer paylayırlar, reklamlar edirlər və namizədliklərini verirlər. İlk dəfə isə həmin namizədin namizədi olurlar. Zamanla təcrübə yığaraq, partiya içində tanınırlar. Əməksevərliyi ilə öz iştiraklarını göstərirlər, bununla da cəmiyyət onu tanımağa başlayır. 10 ildən sonra onlar nümayəndə kimi çox rahatlıqla namizədliklərini verirlər və seçilirlər. Hesab edirəm ki, Ramin Məmmədovun da bu addımı uğurlu bir başlanğıcdır".

# Təlimlərə boşuna pul xərcləyirlər



## Sədrəddin Soltan:

### "Rəsmi Tehran etirazlara cavab vermir, əksinə, gərginliyi daha da artırır"



**İran Azərbaycanla sərhəddə, Culfa-Aslandüz-Muğan istiqamətində hərbi təlimlərə start verir. Təlim ilə bağlı SEPAH tərəfindən hərbi silahlar və texnikanın daşınması davam edir. Hərbi təchizatlar arasında İran istehsalı olan "Tufan" zirehli hərbi maşını da gözə dəyib.**

Azərbaycan-Türkiyə, Azərbaycan-Türkiyə-Pakistan birgə hərbi təlimindən və Gorus-Qafan yolundakı məlum insidentdən sonra İran Azərbaycanla sərhəddə hərbi təlim keçirməyə qərar verib. Bu rəsmi Tehranın rəsmi Bakıya əzələ nümayişidirmi?

**Sualımızı cavablandıran Orta Doğu Araşdırma Mərkəzinin rəhbəri, politoloq Sədrəddin Soltanın fikrincə, İranın dövlət başçısına bu məsələ ilə bağlı müraciət etsək, cavabında bildirər ki, öz ərazimdir, harada istəyirəmsə təlimlər keçə bilərəm:** "Məntiqlə İranın hərbi təlim keçirməsi normal haldır. Ancaq Ermənistanla-Azərbaycanın indiki gərgin vəziyyəti, eləcə də İranla-Ermənistan arasında gərgin siyasi vəziyyətdə bu təlimin keçirilməsi bir mesajdır. Mesaj ondan ibarətdir ki, Azərbaycan qanunlarını pozan iki İran vətəndaşı saxlanılıb. İran sürücüləri qanunsuz olaraq Gorus-Qafan yolundan istifadə edir və Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində fəaliyyət göstərir. Belə bir gərgin situasiyada dövlətimizin İrana qarşı etirazları var. Rəsmi Tehran isə bu etirazlara cavab vermir, əksinə, gərginliyi daha da artırır.

İranın xarici ölkələrlə münasibətdə prinsipi gərginliyi, problemi gücləndirmək və onu həll eləməkdir. Yəni İran Azərbaycan sərhədində hərbi təlimlər keçirməklə iki ölkə arasında gərginliyi artırır. Bu təkcə Azərbaycanla yox, həm də Türkiyə ilə gərginliyin artırılmasıdır. İki ölkə ilə gərginliyi artırdıqdan sonra növbəti addımlarını planlaşdırırlar. Məsələn, bundan sonra iranlı diplomat və səfirlər işə düşməyə başlayacaq, guya, Azərbaycanla münasibtələri normallaşdırmaq istəyəcəklər. Bütün bunlar isə İranın təlimlər keçirməsi üçün boş yerə pul xərcləməsindən başqa bir şey deyil".

**S.Soltan qeyd edib ki, Azərbaycan İranı təhdid etmir:** "Dövlətimiz işğaldan sonrakı dövrdə öz ərazisində yenidənqurma, təmizləmə və qaçqınların yurdlarına qayıtması ilə məşğuldur. Azərbaycan dəfələrlə bəyan edib ki, İran istəyirsə, bu prosesdə iştirak edə bilər. Ancaq İran işğal dövründə və işğaldan sonra oyundan kənar vəziyyətdə qaldığı üçün indi ciddi-cəhdlə özünə haqq qazandırmağa, gərginlik yaratmağa, perspektivdə isə o gərginliyi idarə etməyə çalışır.

Azərbaycan heç kimlə müharibə etmək niyyətində deyil, hərbi potensialımız ancaq ölkənin ərazi bütövlüyünün təmininə görədir. İranla mübarizəyə vaxtımız yoxdur. Çünki İran Azərbaycana düşmən dövlət deyil. Birincisi, orada 35 milyon soydaşımız var, ikincisi isə müsəlman dövlətidir. Hər iki hal Azərbaycanı İrana düşmən etməyə imkan vermir. Bu təlimlər hakimiyyətdə olan müəyyən qrupun regionda İranı aparıcı dövlət kimi göstərmək cəhdidir, ancaq çox uğursuz addımdır".

**Yeganə Bayramova**

Məlahət Rzayeva



# Fərhad Əliyev Qarabağ döyüşçüsünü işdən qovdurub

## Vətən savaşının iştirakçısına Sumqayıtda olmazın zülmünü yaşadıblar

**Qarabağda ermənin nəfəsini kəsənlərin, demə, Sumqayıtda nəfəslərini kəsənlər varmış. Darıxmayın, indi biləcəksiz, söhbət kimdən, nədən gedir. Redaksiyamıza müraciət edən Əliyev Zaman Bəhruz oğlu əslən Cəbrayılın Çərəkən kəndindəndi. Amma 1997-ci ildə Sumqayıtda doğulub.**

Bəlli məsələdi, 23 avqust 1993-cü ildə Cəbrayıl Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra valideynləri Sumqayıtda məskunlaşıb. Zaman da Sumqayıtda doğulub, boya-başa çatıb. 2015-17-ci illərdə həqiqi xidmətdə olub, Gəncə-Şəmkir-Gədəbəy ərazilərində xidmət keçib. Tovuz döyüşləri zamanı cəbhəyə getmək üçün Cəbrayıl rayon Hərbi Komissarlığına müraciət edib, döyüşlərə könüllü qatılmaq istədiyini bildirib. Hərbi komissarlıqda qeydiyyata alınıb, lakin orduya çağrılmayıb. 2020-ci ilin sentyabrında Azərbaycan Sulahlı Qüvvələrinin erməni separatçılarına qarşı əks-hücum əməliyyatı başladıqda Zaman yenə də komissarlığa gedərək orduya könüllü yazılıb: "Cəbrayıl ana vətənimdir, mən onun uğrunda döyüşməliyəm". Komissarlıqda "hələlik, get, ehtiyac olduqda çağıracağıq" deyiblər. Oktyabrın 27-də Zaman Əliyevə çağırış gəlib və o, Ağcabədiyə yola düşüb. Noyabrın 1-dən 8-dək - Qələbə gününədək Xocavənd istiqamətində döyüşüb. Qələbə günündən sonra daha 20 gün də cəbhədə qalıb. Ordudan tərxisolunma qərarı verildikdən sonra evinə - Sumqayıta qayıdıb.



**Bura qədər olanlar nə qədər qürurvericidirsə, bundan sonrası utancvericidir. Zaman özü başına gələnləri danışdı:**

- 3 il Sumqayıtdakı "Alco" MMC-də işləmişəm. Əvvəlcə çilingər, sonra operator, sonra da fəhlə köməkçisi olmuşam. Nə qədər ki, döyüşlər davam edirdi, mən də cəbhədəydim, zavod rəhbərliyi əmək haqqımı ödəyirdi. Vətən müharibəsi qələbəmizlə başa çatdı, mən ordudan tərxis olunub evə qayıtdım. Döyüş bölgəsində bəzi zədələr almışdım. Ona görə də həkimin məsləhəti oldu ki, 1 ay müalicə olunmalıyam. Müalicəmi başa vurandan sonra zavoddakı işimə qayıtmaq istədim. Məlum oldu ki, zavod rəhbərliyi məni öz hesabıma məzuniyyətə göndərib. İstehsalat müdiri Eməl Kuşkunun qəbuluna getdim. Mənə dedi ki, "1 gün işləyirsən, 2 gün evdə qalırsan, səndən narazıyıq". Mən ona müalicə olunduğumu dedim. Mənə dedi ki, ərizə yaz, 3 ay öz hesabına məzuniyyətə çıx, sonrasına baxarıq. Mən 3 ay işsiz necə qala bilərdim? 24 yaşım var, öz ehtiyaclarımı ödəmək məcburiyyətindəyəm. Bankın kredit borcunu ödəməliyəm, evdə xəstəmiz var. Eməl xanım dedi ki, 3 ay sonra bizimlə işləmək istəyirsənsə, indi məzuniyyət ərizəsi yazmalısan. Mən "Alco" MMC-nin rəhbəri Fərhad Əliyevlə (sabiq istisadi inkişaf naziri, "Azpetrol"un sabiq prezidenti - red.) görüşmək istədiyimizi dedim, çünki hansı səbəblə işdən uzaqlaşdırıldığımı bilmək istəyirdim. Eməl xanımsa "mən nə deyirəm, Fərhad müəllim də onu deyəcək. Mən Fərhad müəllimin adından danışıram", söylədi. Mənim F.Əliyevlə görüşməyimə imkan vermədi. Mən bilirəm ki, zavodda işçilərin çoxuna belə məzuniyyət ərizəsi yazdırıb, sonra isə işdən azad ediblər. Belə bir ərizə yazmamaq qərarına gəldim, lakin sonra bildim ki, ərizə yazmasam, əmək kitabçamı verməyəcəklər, ya da ora elə qeyd edəcəklər ki, məni daha heç bir yerdə işə götürən olmayacaq. 3 aylıq "məzuniyyət"i gözləyə bilməzdim, çünki dolanışıq üçün əmək haqqı almalıyam. Ona görə mən işdən azad olunmağımla bağlı ərizə yazdım ki, əmək kitabçamı qısa zamanda əlimə alıb və özümə başqa iş axtarım. Sentyabrın 8-dən etibarən işsizəm. Təsəvvür etməzsiniz, mənə ərizəni gözətçi otağında, sanki gizli, oğrun-oğrun yazdırdılar, fəhlə dostlarımla sağollaşmağa da icazə verilmədi.

*Qeyd edək ki, Əliyev Zaman Bəhruz oğlu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Xocavəndin azad edilməsi uğrunda" medalı və Fəxri fərmanla təltif edilib. Zaman Əliyev məcburi köçkün həyatı yaşamış, doğma yurdunu, el-obasını dünya gözü ilə görmədən onu sevən, ona sitayiş edən və uğrunda canını fəda etməyə hazır olan Azərbaycanın minlərlə gəncindən biridir. Belə gənclərin hansısa məmur tərəfindən incidilməsi Vətənin incidilməsidir.*

# Rusiyada "ağıllı səsvermə" bitdi

## Putinin "Vahid Rusiya"sı qalib oldu, kommunistlər ikinci yeri qazandı




### Müxaliflər "karusellər", məcburi səsvermə, topa bülletenlərin qutuya atılması, müşahidəçilərin işinə maneələr haqda informasiyalar yayıblar

İsmayıl Qocayev

**Rusiya Dövlət Dumasına seçkilərdə iqtidar partiyası - "Vahid Rusiya" ("Yedinaya Rosiya") qələbə qazanıb. İlkin nəticələrə əsasən, iqtidar partiyası səslərin 43 faizini toplayıb. Kommunist Partiyası 23, liberal demokratlar 8,7, Ədalətli Rusiya isə 7 faiz səslə Dumaya daxil olublar. Ölkə üzrə seçici aktivliyinin 50 faizdən çox olduğu bildirilib.**

Müxalifət və müşahidəçilər üç gün davam edən səsvermə prosesində çoxsaylı pozuntuların olduğunu deyiblər. O cümlədən, dəfələrlə səsvermə haqda - "karusellər", məcburi səsvermə, topa bülletenlərin qutuya atılması, müşahidəçilərin işinə maneələr və şikayətlərə baxmaqdan imtina olunması halları haqda da informasiyalar yayıblar. "Kavkazski uzel" nəşri Ukraynanın işğal olunmuş Donbas vilayətindən Rusiyanın Rostov vilayətinin Krasnı Sulin yaşayış məntəqəsinə səsvermə üçün təxminən 200 nəfər gətirildiyi haqda məlumat yayıb. Kemerovoda seçki məntəqəsində müşahidə kamerası qutuya topa bülleten atılmasını qeydə alıb. Lakin Dumaya seçkilərdə daha çox müzakirə olunan məqamlardan biri seçki ərəfəsində vətəndaşların internetə çıxış imkanlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılması olub. Digər məsələ isə müxalifətin tanınmış siması Aleksey Navalnı ilə bağlıdır. Həbsdə olan Navalnının özü, o cümlədən tərəfdarları seçkilərdə və siyasi həyatda iştirak edə bilmirlər. Onlar partiya kimi qeydiyyata alınmır, Navalnı ilə bağlı təşkilatlar isə ekstremist elan olunaraq qadağan ediliblər. Rusiya müxalifəti üçün ən mübahisəli qərar isə "Google" və "Apple" kimi dünya nəhənglərinin "Navalnı" proqramını silməsi olub. Sentyabrın 17-də Prezident Vladimir Putinin onlayn səs verdiyini əks etdirən video da yayılıb. Seçkilərdən bir neçə gün əvvəl Kremldə prezidentin ətrafında çox sayda koronavirusa yoluxanların olduğu üçün özünütəcridə qapandığı elan olunmuşdu. Məhz ona görə, Putinin səsvermə kadrları sosial şəbəkə istifadəçilərində suallar doğurub.

Azərbaycan Milli Məclisinin nümayəndə heyəti də Dövlət Dumasına seçkilərdə müşahidəçi missiyası ilə iştirak edib. Müşahidəçi deputat Nizami Səfərov bildirib ki, Azərbaycandan olan müşahidəçilər öz missiyalarını Moskva vilayətində həyata keçiriblər: "Rəqəmsal videonəzarət sistemi Moskva vilayətində tətbiq edilmişdi. Bundan əlavə, bir sıra seçki məntəqələrində müşahidələr aparmışıq və missiyamız müşahidələrinin nəticələrini yaxın vaxtlarda təqdim edəcək. Müşahidələrimiz əsasında qeyd edə bilərik ki, Rusiyada seçkilər qanunamüvafiq qaydada keçirilib və onları baş tutmuş hesab etmək olar".

**REAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib ki, Aleksey Navalnının yanvarda ölkəyə qayıtmasının nə qədər səhv olduğu bir daha öz təsdiqini tapdı. Siyasi şərhçiyə görə, Navalnı Rusiyaya seçkilərə 2-3 ay qalmış gəlsəydi, tamam başqa vəziyyət yarana bilərdi:** "Rusiya cəmiyyətində "liberalizm" mümkün deyil. Xalq bu dəyərləri istəmir, görmür, bəyənmir. Rusiya tipik "sol", hətta ifrat "sol" toplumdur. Seçkiyə gedən bütün partiyalar sol, etatist, "ura-patriotik" şüarlarla getdi. Hakim partiya, kommunistlər, sosialistlər, hətta Jirinovski də eyni şüarlarla, bənzər yanaşma ilə, anti-liberal gündəm ilə seçkilərdə təbliğat apardılar. Nə qədər qəribə səslənsə də, hakim "Yedinaya Rossiya" daha iqtisadi liberal tezislərlə seçkilərə getdi. Digərləri "nyu-bolşevizm", iqtisadiyyatın milliləşdirməsi, daha militarist və aqressiv gündəliklə seçkilərə qatıldılar".

**N.Cəfərli vurğulayıb ki, seçkilər bir daha sübut etdi ki, Kreml Qərblə qarşıdurmadan gözəl istifadə etməyi bacarır:** "Qərbin 2008-ci ildən bəri həyata keçirdiyi Rusiya siyasəti Putin hökumətinin güclənməsinə xidmət etdi. Deməli, yanaşma və metodlar doğru deyildi. Rusiya cəmiyyəti kifayət qədər konservativ və militaristdir. Putin cəmiyyətin və toplumun böyük hissəsinin gözləntilərinə tam cavab verir. Rusiyada baş tutan seçkinin böyük nəticələrindən biri də odur ki, heç bir ciddi siyasi qüvvə "boykot" kimi mənasız, məzmunsuz, effektsiz yola baş vurmadı. Hətta zindanda olan Navalnı belə boykota çağırış etmədi, tam tərsinə, vətəndaşları seçkilərdə aktiv iştiraka səslədi, "ağıllı səsvermə" taktikasını elan etdi".



# Şəhid ailəsinə qarşı dələduzluq edən şəxslər saxlanıldı

## Onlar şəxs ifadələrində törətdikləri qanun pozuntusunu etiraf ediblər

**Vətən müharibəsində iştirak edərək qəhrəmancasına həlak olmuş şəhidlərimizdən birinin qohumlarının Daxili İşlər Nazirliyinə etdikləri müraciətlə əlaqədar zəruri əməliyyat tədbirlərinə başlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, araşdırma zamanı həmin şəhidin döyüşlərdə həlak olandan sonra yaşadığı rayonda dəfn edildiyi, bundan sonra onun anasının övladının bəlkə də, dünyasını dəyişmədiyini, şəhidin isə başqa birisi olduğunu zənn edərək çıxış yolunu "falçı"lara müraciət etməkdə gördüyü müəyyən edilib. Bu məqsədlə o, Xəzər rayonunda yaşayan və "falçı" kimi tanıdığı bir qadına müraciət edib. Həmin şəxs 100 manat pul müqabilində "fala" baxaraq övladının dünyasını dəyişmədiyini və əsirlikdə olduğunu anasına bildirərək onu aldadıb. Sonradan falçının oğlu İxtiyar Orucov və şəhidin yaxın qohumu Balaxan Hüseynlinin ünsiyyətləri yaranıb və onlar əlbir olaraq şəhidin ailə üzvlərinə dövlət tərəfindən ayrılan pulu, eləcə də onların əlində olan əlavə maddi vəsaitləri dələduzluq yolu ilə ələ keçirmək barədə razılığa gəliblər.

Bundan sonra adları çəkilən şəxslər öz çirkin əməllərini həyata keçirmək üçün şəhidin fotolarını montaj edərək guya onun əsirlikdə sağ olmasını özündə əks etdirən yeni şəkillər hazırlayıblar. Bu şəxslər hətta qrim ustasının yanına gedərək guya şəhid haqqında sənədli film çəkiləcəyini qeyd ediblər. Balaxan Hüseynlinin qrimdən istifadə edərək şəhidə bənzədilməsinə nail olublar. Balaxan Hüseynlinin qrimlənmiş şəkillərini və videogörüntülərini şəhidin anasına göstərərək onu övladının sağ olduğuna inandırmağa nail olublar. Niyyətlərini həyata keçirmək məqsədi ilə mərhumun qohumu Balaxan Hüseynli öz səsini şəhid qohumunun səsinə bənzədərək bir neçə dəfə İxtiyar Orucovun telefonu ilə şəhidin anası ilə danışıb və sağ olduğuna dair onlarda yalnış təsəvvür yaradıb. Daha sonra hər iki şəxs şəhidin anasından və qohumlarından pul almaq üçün guya əsirlikdə olan övladlarını qonşu ölkələrdən biri vasitəsi ilə Azərbaycana gətirəcəkləri adı ilə aldadıb bu məqsədlə onladan 100 min manat pul istəyib və müxtəlif vaxtlarda hissə-hissə şəhidin qohumlarından 26 min 800 manat alıblar.

Faktla bağlı Daxili İşlər Nazirıiyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. İxtiyar Orucov və Balaxan Hüseynli tutularaq hər iki şəxsə ittiham elan edilib və məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib. Onlar şəxs ifadələrində törətdikləri qanun pozuntusunu etiraf ediblər. Hazırda həmin cinayət əməlinin digər iştirakçılarının olub-olmamasının müəyyən edilməsi istiqamətində zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# Hava məkanının açılması yetərli deyil

## Şərtləri qəbul etmək, bütün kommunikasiyaları açmaq Ermənistanın çıxış yoludur

**Ermənistan Gəncə-Naxçıvan reysləri üçün hava məkanını açıb. Bu barədə məlumatı Ermənistan Mülki Aviasiya Komitəsi yayıb. Bildirilib ki, tranzit uçuşları üçün Ermənistan Azərbaycana hava məkanını açıb. Qeyd olunub ki, Türk Hava Yolları Gəncə-Naxçıvan marşrutu üzrə müntəzəm reyslərdə Ermənistanın hava məkanından istifadə edə biləcək. Bu, beynəlxalq tələblərə uyğun olaraq həyata keçiriləcək.**

Əslində bütün kommunikasiyaların açılmasının Ermənistanın maraqları çərçivəsində olduğunu deyən politoloq Natiq Miri "Şərq"ə açıqlamasında qeyd edib ki, kommunikasiyaların açılması Ermənistanın blokadadan çıxarılması və iqtisadi inkişafının yeganə şərtidir. Politoloq qeyd edib ki, blokada şəraitində Ermənistanın ticarət əlaqələri bütün istəklərinə rəğmən məhduddur: "Hətta strateji müttəfiq olduğu Rusiya ilə belə əlaqələr zaman-zaman, xüsusilə də qış aylarında çox ciddi şəkildə məhdudlaşır. Bu da əməkdaşlıq və ticarət əlaqələrində iki dövlət arasında hər zaman probleme çevrilir və Ermənistanın iqtisadi dirçəlişinə imkan vermir. Ancaq çox maraqlıdır ki, bu kommunikasiyaların açılması məsələsini bu gün Ermənistanın daxilində siyasi mübarizə predmetinə çeviriblər. Bu gün müxalifət çox ciddi şəkildə kommunikasiyaların açılmasını torpaqların Azərbaycana satılması kimi qələmə verir. Bunu qətiyyətsizlik, siyasi iradəsizlik, təslimiyyət kimi qələmə verirlər. Əlbəttə, bu da erməni cəmiyyətində birmənalı qarşılanmır. Qeyd edək ki, erməni xalqı ağır məğlubiyyətə rəğmən sülhə, təhlükəsizliyə və iqtisadi dirçəlişə səs verdi. Çünki revanşist qüvvələrindən bu yöndə hər hansı gözlənti yoxdur. Ona görə də Nikol Paşinyan bu gün xalqın verdiyi mandatı doğru-dürüst dəyərləndirməli və bu yöndə strateji, qətiyyətli qərarı verməyi bacarmalıdır. Bu məsələni siyasi alver predmetinə, hökumətin cılız, korporativ maraqlarına çevirməməlidir. Ancaq Nikol Paşinyan bu gün ziddiyyətli açıqlamalar və davranışlar ortaya qoyur. Bir tərəfdən Türkiyə və Azərbaycanla danışıqlara hazır olduğunu, bütün kommunikasiyaların açılmasına hazır olduğunu bəyan edir. Ancaq digər tərəfdən Azərbaycana və Türkiyəyə qəbul olunmaz şərtləri irəli sürür. Hesab edirəm ki, bütün manevr imkanları ilə Nikol Paşinyan zaman qazanmaq istəyr. Ancaq bu zaman Nikol Paşinyana nə qazandıracaq? Bildiyiniz kimi, Nikol Paşinyanın rəhbərlik etdiyi hökumətə Avropa Birliyi 2,5 milyard avro miqyasında konkret maliyyə dəstəyi vermək niyyətindədir. Ancaq bunun üçün konkret proqram və 5 prioritet istiqamət müəyyənləşdirib. Bu istiqamətlərdən biri Ermənistanın blokadadan çıxarılaraq bir tranzit ölkəsinə çevrilməsidir. Bunun üçün mütləq mənada Azərbaycan və Türkiyə ilə diplomatik münasibətləri qurmaq, bütün kommunikasiyaları açmaq və əlbəttə ki, Azərbaycanla sülh müqaviləsini imzalamaq tələb olunur. Bunun üçün də mütləq mənada sərhədlərin müəyyənləşməsinə ehtiyac var. Sərhədlərin müəyyənləşməsi qarşılıqlı olaraq həmin ölkələrin ərazi bütövlüyünü tanıması anlamına gəlir. Nikol Paşinyan buna hazırdırmı? Əlbəttə, hələlik biz bunu görmürük. Çünki o, hələlik müəyyən güc mərkəzləri Rusiya, eyni zamanda Qərbdə olan havadarları arasında müəyyən manevr imkanlarını saxlamaq üçün aşağı-yuxarı var-gəl edir. Buna görə də Nikol Paşinyanın bu yöndə hələlik strateji qərar verdiyi hiss olunmur".

**Ermənistan tərəfindən səslənən yumşaq ritorikaya güvən azdır, Paşinyan bu gün ziddiyyətli açıqlamalar və davranışlar ortaya qoyur**

**N.Miri əlavə edib ki, hava məkanının açılması Nikol Paşinyan hökumətinə ən az təhlükə vəd edən məsələdir:** "Bu gün təkcə hava məkanını açmaq yetərli deyil, Ermənistanın özünün marağında olan Mehri dəhlizinin açılmasına da ehtiyac var. Əgər ana Azərbaycan Naxçıvanla birləşəcəksə, Ermənistan da Rusiya ilə həm dəmiryolu, həm də avtomobil yoluyla əlaqələrini bərpa edəcək. Ayrıca bu kommunikasiya açılandan sonra Ermənistan Naxçıvan vasitəsilə İranla əlaqə saxlayacaq. Bu da ən azından Cənub-Şərq Asiya ölkələrinə, Hindistana qədər ticarət əlaqələrini təmin edəcək, eyni zamanda Ermənistana yeni maliyyə bazarına çıxışına şərait yaradacaq. Yəni tərəzinin bir gözündə Ermənistanın gələcək inkişaf perspektivi, o biri tərəfində siyasi hakimiyyətin cılız maraqları və konkret havadar dövlətlərin cılız geosiyasi sifarişləri var. Ermənistanda erməni xalqını düşünən bir siyasətçi varsa, o zaman Azərbaycan və Türkiyə ilə əlaqələri bərpa etməlidir. Bunu anlamayana qədər isə Ermənistanın bu cür rəzil vəziyyəti davam edəcək. Düşünürəm ki, Avropa Birliyinin ayırdığı 2,5 milyard avro da bu cür inkişaf perspektivi olmayan ölkəyə verilməyəcək".

Aynurə Pənahqızı

# Gec-tez hamısı anlayacaq

## Qondarma respublika olmadığı üçün, qondarma bayraq da ola bilməz

İsmayıl Qocayev

**Xəbər verdiyimiz kimi, Azərbaycan polisi Gorus-Qafan yolunun Şurnux kəndi ərazisindən hərəkət edən avtomobilin üzərindəki qondarma "respublika"nın "bayrağı"nı elə yerindəcə süngü ilə qazıyıb. Təxribatçı ermənilər daimi missiyalarına sadiq qalaraq avtobusun üzərinə qondarma rejimin əski parçasını yapışdırıblar. Postda yoxlanış zamanı "bayraq" rəsmi polisimizin diqqətindən yayınmayıb. Polisimiz süngü ilə həmin qondarma "bayrağı" sildikdən sonra "Qarabağ Azərbaycandır" deyərək sürücünü yola salıb.**

Qısa zamanda sosial şəbəkələrdə trendə çevrilən video Ermənistanda rezonans doğurub. Polis postunda hər şeyin belə xırda detallara qədər incələnməsi isə ictimaiyyət arasında qorxu yaradıb. Sadə ermənilərlə yanaşı siyasətçilər, ictimai fəallar bundan sonra öz hüquq-mühafizə orqanlarının yox, Azərbaycan polisinin dediyi ilə oturub-duracaqlarından qorxduqlarını aşkar şəkildə etiraf ediblər. Deputat Artur Qazinyan Azərbaycanın bütün sferalarda diktə edən tərəf olmasından gileylənib. Qazinyan ölkə rəhbərliyinin sayəsində rəzil duruma düşdüklərini deyib: "Artıq maşınlarımızda hərbi bıçaqla "Artsax"a aid "bayraq" təmizlənir. Bütün bunlara paralel olaraq "qürurlu insanlar" müstəqilliklə bağlı rəngarəng bayramları səbirsizliklə gözləyirlər". "Vətən" Partiyasının rəsmisi Babken Arutyunyan da təxribatın qarşısını alan Azərbaycan polisi ilə bağlı yayılan görüntülərdən üzüldüyünü gizlətməyib. O, bu duruma görə hakimiyyətlə yanaşı xalqı da qınayıb: "Bu aşağılanmağa qarşı kim çıxmalıdır? Hakimiyyəti tamamilə ələ keçirmək və müxalifətə qarşı repressiya tətbiq etmək üçün "polad" mandat aldınız. Gedin, düşmənlə də mübarizə aparın. Hakimiyyət, hökumət sizsiniz, biz yox! Nikolizmə səs verənlər, nə ilə fəxr edirlər?". Qeyd edək ki, əksər erməni ekspertlər "bayraq" silmə hadisəsinin üzərindən sakit keçərək, maşının içərisində yeniyetmə ermənilərin olduğuna diqqət çəkməyə çalışıblar. Guya, polisimizin hərəkəti erməni uşaqlarını "qorxudub".

**Məlum olayın Ermənistanda yaratdığı narahatlıqla bağlı "Şərq"lə fikirlərini bölüşən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, polisimizin hərəkəti çox qürurvericidir. Professorun sözlərinə görə, bu məsələdə dövlətin yürütdüyü siyasətin və ölkə mediasının da rolu danılmazdır:** "Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, "Dağlıq Qarabağ" adında heç bir "respublika" yoxdur. Silahlı qüvvələrimiz, sərhəd qoşunlarımız, hüquq-mühafizə orqanlarımız dövlət başçısının tapşırıqlarını icra edirlər. Bir vətəndaş kimi polisimizə minnətdaram ki, bu cür qürurverici addımla bizi fərəhləndirirlər. Əslində bu hərəkətin erməni yeniyetmələrinin gözü qarşısında edilməsi də uğurlu gediş idi. Erməni gəncləri gördülər ki, belə qondarma "respublika" olmadığı üçün, hansısa "bayrağı" da ola bilməz. Heç olmasa, valideynləri kimi xülyalarla yaşamazlar".



**"Ermənistan isterika yaşasa da, reallığı göstərən Azərbaycan əsgəri və polisidir"**

**C.Nuriyev qeyd edib ki, Ermənistanın bunu isterika ilə qarşılaması təbiidir:** "Erməni kilsəsi yüzillərdir təbliğat aparır, özlərini dünyanın "ən ağıllı", "ən cəsarətli" xalqı kimi təqdim edirdilər. 44 gündə məlum oldu ki, bunların hamısı uydurma imiş. Artıq bu reallığı erməni toplumu əyani şəkildə görməkdədir. Reallığı göstərənlər isə Azərbaycan əsgəri və polisidir. Ermənilərin özləri də uzun zaman beyinlərinə yeridilmiş miflərə inanmamağa başlayıb. Gec-tez hamısı ayılacaq. Təşvişlərinə səbəb olan başqa məqamlar da var. Ermənilər Qarabağı çoxdan əldən verdiklərini yaxşı bilirlər və bunu qəbul ediblər. Onları daha çox narahat edən məsələ Ermənistanın da əldən çıxması təhlükəsidir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

**İsmayıl Qocayev**

# Vətən müharibəsindən sonra Azərbaycan diasporası səfərbər olunub

## Ermənilərin təxribatlarının qarşısını almaq üçün daim ayıq-sayıq olmalıyıq



**44 günlük Vətən müharibəsindən sonrakı mərhələ Azərbaycan diasporunun qarşısında yeni vəzifə və məsuliyyətlər qoydu. Ölkəmizin ərazi bütövlüyü uğrunda apardığımız müharibə və onun nəticələri, həqiqətlərin dünyaya olduğu kimi çatdırılması, Qarabağda həyata keçirilən bərpa və quruculuq işləri ilə bağlı dünya ictimaiyyətini ətraflı məlumatlandırmaq ümdə vəzifəyə çevrildi. Ümumiyyətlə, 2020-ci il müasir Azərbaycan diasporunun dönüş ili kimi xarakterizə olunur. İlin əvvəllində qəflətən dünyanı bürüyən koronavirus pandemiyası ilə əlaqədar çətin vəziyyətdə qalmış soydaşlarımıza dəstək göstərmək üçün diasporumuz çox böyük birlik, həmrəylik və humanizm nümayiş etdirdi.**

Pandemiya ilə başlayan bu birlik sonradan Ermənistanın Tovuz təxribatı zamanı daha da möhkəmləndi və torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsində özünün ən yüksək zirvəsinə çatdı. 44 günlük hərbi əməliyyatlar dövründə xaricdəki soydaşlarımız siyasi baxışından, düşüncəsindən, yaşadığı ölkədən, çalışdığı yerdən asılı olmayaraq, milli birlik nümayiş etdirərək bütün imkanları ilə dövlətimizə və ordumuza dəstək göstərdi. Onlar orduya, yaralı əsgərlərə, şəhid ailələrinə, cəbhəboyu ərazilərdə yaşayan, müharibədən zərər çəkən dinc sakinlərə, şəhid ailələrinə maddi, humanitar yadımlar göndərməklə yanaşı, haqq səsimizin dünyaya çatdırılmasında da böyük mütəşəkkillik və fədakarlıq ortaya qoydular. Milli birliyimiz cəbhədə Azərbaycanın böyük qələbəsi ilə nəticələndi. Beləliklə Azərbaycan xalqı və dövləti ilə bərabər diasporumuz da yeni bir mərhələyə qədəm qoydu. Yəni döyüş meydanında müharibə bitsə də, informasiya və diaspor cəbhəsində əsl savaş başladı. Ona görə də diasporamız hər mərhələdə yeni məqsədlərlə fəaliyyətə başlamalıdır. Planlarımızı davamlı şəkildə qurmalı, həyata keçirməliyik. Mühüm məsələlərdən biri də lobbiçiliyin koordinasiyalı şəkildə aparılmasıdır. Akademik sahədə fəaliyyətimizin gücləndirilməsinə ehtiyac var. Dünyanın müxtəlif ölkələrində elmi konfranslar keçirilməli, tədqiqatlar aparılmalı, universitetlərdə güclü təbliğat işi qurulmalıdır. Mədəni təbliğatı davam etdirərək mütəmadi şəkildə tədbirlərin keçirilməsini təmin etməli və bu istiqamətdə təbliğatı gücləndirməliyik. Düzdür, Azərbaycan qalib ölkədir, amma informasiya müharibəsi dayanmayıb, son dönəmlər baş verən ardıcıl təxribatlar da bunu göstərir. Qələbəmizi daha da möhkəmləndirmək üçün siyasi, akademik dairələr və mətbuatla əlaqələrimizi genişləndirməliyik. Kitablar yazılmalı, çap edilməli, dünya ölkələrinin kitabxanalarında yayılmalıdır. Eyni zamanda, azərbaycanlıların bir araya gətirilməsi, onların potensialından düzgün və faydalı şəkildə istifadə olunması vacib amillərdəndir. Bunun üçün müxtəlif ölkə və şəhərlərdəki mədəniyyət mərkəzlərinin sayını artırmaq, olmayan yerlərdə isə yenilərini yaratmaq zəruridir.

Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Leyla Həmzəyeva vurğulayıb ki, torpaqlarımızın azad olunmasından sonra yeni fəaliyyət strategiyası hazırlanıb. Qurum rəsmisinin sözlərinə görə, daha məqsədyönlü fəaliyyət üçün Prezident İlham Əliyevin də qeyd etdiyi kimi xarici mediaya çıxış imkanları olmalıdır: "Bunu nəzərə alaraq "Qafqaz jurnalistləri" şəbəkəsi təsis olunub. Bura xarici ölkələrdə media sahəsində çalışan diaspor fəalları ilə yanaşı, nüfuzlu mətbuat qurumlarının nümayəndələri və müstəqil ekspertlər də cəlb də olunublar. Bu şəbəkə Qarabağda görülən işlər, minalanmış ərazilər, Oxçuçay və digər məsələlərlə bağlı geniş fəaliyyət icra edir. Həm "Azərbaycan evləri", həm də "Qarabağ" adlı məktəblərin fəaliyyətinə dair yeni yol xəritəsi hazırlanıb. Bundan sonra diaspora təşkilatları məhz bu istiqamət üzrə çıxış edəcəklər".

**Diaspor üzrə araşdırmaçı-ekspert, "Vikipediya" üzrə mütəxəssis Elnur Eltürk "Şərq"ə açıqlamasında bildirib ki, Vətən müharibəsində Azərbaycan diasporunun aktivliyi gözlənilən idi. Onun sözlərinə görə, zaman və şərait Azərbaycan diasporunun fəal olmasını diktə edirdi:** "Üstəlik, təşkilatlanma təbii xarakter daşıyırdı. Təşkilatlanma sosial şəbəkələrdə güclü şəkildə davam edirdi. İnsanlarımız baş verən təxribatların qarşısını almaq üçün anındaca cavab verirdi.

İnsanlar siyasi və sosial düşüncəsindən aslı olmayaraq, Vətən, torpaq ideyası və düşmənin təcavüzkar hücumlarına qarşı olaraq birləşmişdi. Müharibə dövründə Azərbaycan diasporunun fəallığı yuxarıda qeyd etdiyim kimi baş verən hadisələrlə bağlı idi. Hesab edirəm ki, biz buna normal yanaşmalıyıq. Həm də nəzərə almalıyıq ki, Azərbaycan diasporunun yaranma tarixi o qədər çox deyil. Bəs, "post-müharibə dövründə diasporun üzərində hansı yük düşür" sualına cavab olaraq qeyd etməliyəm ki, erməni diasporunun təxribatlarının qarşısını almaq üçün daim ayıq-sayıq olmalıyıq. Düşmən bütün istiqamətlərdə Azərbaycana zərbə vurmağa çalışır".

**E.Eltürk vurğulayıb ki, yenidən hansısa hadisələrin baş verməsini gözləməməliyik ki, Azərbaycan diasporunun aktivliyi müşahidə olunsun:** "Azərbaycan diasporu hər zaman fəaliyyət göstərdiyi ölkələrin administrasiyası, parlamentləri, siyasi-ictimai dairələri, mediası ilə sıx iş mexanizmini qurmalıdır. Düşmən diasporu məhz bunları edir. Çünki bu, effektiv fəaliyyət sistemidir. Erməni diasporu xarici ölkələrin parlamentlərində, beynəlxalq təşkilatlarda Azərbaycana qarşı qətnamə və sanksiyaların qəbul olunması üçün bütün çirkin niyyətlərini həyata keçirtməyə çalışır. Azərbaycan diasporunun imkan və fəaliyyəti strategiyası o qədər geniş, sistemli olmalıdır ki, bu kimi halların qarşısı öncədən alınsın. Bunun üçün Azərbaycan diasporunun potensialı və imkanları var. Əsas odur ki, mövcud imkanları düzgün istiqamətləndirmək lazımdır".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# 15 məktəb direktoru dəyişdirildi

## Təhsildən gözləntilərimizi almaq üçün daha peşəkar kadrlara önəm verilməlidir




**"Kurikulum sistemini yaxşı bilən şəxslər məktəblərə rəhbərlik etməlidir"**

**Aynurə Pənahqızı**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 15 ümumi təhsil müəssisəsinə yeni direktor təyin olunub. BŞTİ-dən verilən məlumata görə, yeni təyinatlar paytaxtdakı 109, 136, 156, 170, 172, 173, 31, 21, 229, 262, 312, 52, 55, 59, 96 nömrəli tam orta məktəblər üzrə müsabiqəyə çıxarılmış vakant vəzifələri əhatə edib.**

Yeni təyin olunmuş məktəb rəhbərləri işə qəbul üzrə müvafiq müsabiqənin bütün mərhələlərindən (elektron sənəd qəbulu, test imtahanı, müsahibə və vakansiyalara yerləşdirilmə) uğurla keçmiş şəxslərdir. Qeyd edək ki, müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili, 5 ildən az olmayaraq (təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olduqda 3 il) pedaqoji stajı olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak ediblər.

**Ümumi təhsil məktəblərində uğur əldə etmək üçün idarəetmənin düzgün qurulmasının vacib məsələ olduğunu deyən Elçin Əfəndi "Şərq"ə açıqlamasında diqqətə çatdırıb ki, bu işdə məktəb direktorunun üzərinə mühüm vəzifə düşür. Ekspert qeyd edib ki, məktəbin təməl işi tədrisi həyata keçirmək, direktorun əsas vəzifəsi bu prosesi düzgün qurmaq və asanlaşdırmaqdan ibarətdir:** "Hər il orta məktəblərdə direktorların işə qəbulu üzrə imtahanlar təşkil olunur və yeni kadrlar təyin olunur. Əlbəttə ki, bu kadrların seçimində ilkin olaraq gözləntilər böyükdür. Təcrübə göstərir ki, bu işi liderlik bacarıqlarına malik direktorlar daha yaxşı təşkil edir . Məhz şagirdlərin, müəllimlərin gözlənti və ehtiyaclarını lazımınca qarşılaya bilən, ədalətli, çalışqan və dəyərləndirməyi bacaran məktəb rəhbəri uğurlu direktor kimi qəbul olunur. Məhz liderlik bacarıqlarına sahib direktorun rəhbərlik etdiyi məktəbin müəllimləri işlərinə daha məsuliyyətlə yanaşır, bilik və bacarıqlarını artırırlar. Şagirdlər də dərslərinə daha ciddi hazırlaşır, istedadlarını üzə çıxarmağa çalışır, uğur əldə etməyə həvəs göstərirlər. Yəni gələcəkdə bu cür direktorların fəaliyyəti nəticəsində yüksək nəticələr əldə olunur. Məktəbin nəticəsi, qiymətləndirilməsi yüksək olur və həmin məktəbin şagirdləri ali təhsil müəssisələrində uğurlar qazana bilirlər. Təbii ki, yeni təyin olunan direktorların hər biri kurikulum sistemi ilə tanışdılar. Həmin şəxslər də şagirdləri o istiqamətdə inkişaf etdirməyə çalışırlar. Ona görə də düşünürəm ki, müvafiq olaraq təyinatların verilməsi təkcə bu 15 məktəblə bitməməlidir. Çünki başqa-başqa rayonlara və yaxud da Bakı şəhərinin tabeliyində olan rayonların hər birinə müasir təhsil standartlarına cavab verən məktəb direktorlarının təyin edilməsi vacib və zəruridir. Çünki təhsilin inkişaf etdirilməsini istəyiriksə, biz ilk növbədə yeni kadrlara önəm verməliyik. Əgər kurikulumu bilən kadrlar iş başında olarsa, o zaman bizim təhsildən gözləntilərimiz də böyük olar".

**Aynurə Pənahqızı**

# İqtisadiyyatımıza 40 milyard dollar investisiya qoyulacaq

## "Əsrin müqaviləsi"nin davamı və onun yaratdığı imkanlar genişlənir



**"27 il əvvəl dünyanın müxtəlif ölkələrini təmsil edən şirkət nümayəndələri Bakıda bir araya gələndə çox azı düşünürdü ki, Azərbaycan qısa müddətdən sonra Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində aparıcı ölkələrdən birinə çevriləcək".**

**Bunu millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov qeyd edib. Ekspert "Əsrin müqaviləsi" ilə bağlı vacib məqamlara toxunub:** "Müqavilənin operatoru kimi çıxış edən "BP" şirkəti ən çox paya malik idi: ingilislər 34,1 faiz paya sahib ola bilmişdilər. Qalan paylar digər iştirakçı şirkətlər arasında bölüşdürülmüşdü: "Chevron-Texaco" (10,2 faiz), "Lukoil" (10 faiz), ARDNŞ (10 faiz), "Statoil" (8,6 faiz), "ExxonMobil" (8 faiz), "TPAO" (6,8 faiz), "Devon Energy" (5,6 faiz), "Itochu" (3,9 faiz), "Amerada Hess" (2,7 faiz). Dünyanın 7 ölkəsinə mənsub olan 11 neft şirkəti sonradan bir araya gələrək konsorsium yaradaraq Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin müştərək işlənməsi haqqında müqavilə imzaladılar. Saziş çərçivəsində 20 milyard dollar investisiya neft sektoruna yönəldilmişdi və 6,5 milyard bareldən artıq neft hasil edilməsi proqnozlaşdırılırdı. Müqavilə çərçivəsində "Çıraq" neft yatağından hasil edilən neftin ixracına 1999-ci ildə başlanılmışdı. Əvvəlcə 4 platformadan ümumi olaraq gündə 674 min barel neft ixrac edilməyə başlanılmışdı ki, bunun da 131 min bareli "Çıraq", qalanı isə "Azəri" yatağında hasil edilmişdi. Yeni əsrdən isə Azərbaycan "Bakı-Tbilisi-Ceyhan" neft kəməri ilə neft ixracını gündəlik olaraq 1 milyon bareldən çox artırmağa nail olmuşdu. "Əsrin müqaviləsi" sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması ilə davam etdirildi. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biridir. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları investisiya qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdi. Nəhayət, 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tankeri dünya bazarlarına çıxarıldı. Nəticədə enerji resursları ölkəmiz üçün yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, həmçinin ciddi geosiyasi alətə çevrildi. Azərbaycan artıq dünya enerji təhlükəsizliyinə töhfə vermiş ölkələrdən sayılır. Digər maraqlı nüans olaraq qeyd etmək istəyirəm ki, "Əsrin müqaviləsi" qlobal arenada enerji təchizatçısı kimi Azərbaycanın müstəqil beynəlxalq siyasət həyata keçirməsinə imkan yaratdı".

**V.Bayramov qeyd edib ki, "Əsrin müqaviləsi" ilk olaraq ölkənin beynəlxalq güvənini ciddi şəkildə artırmaqla xarici investisiya axınlarını sürətləndirdi:** "Əsrin müqaviləsi"nin davamı və onun yaratdığı imkanlar kontekstində 2017-ci ildə Azərbaycan daha bir strateji layihəyə imza atdı. Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında həyata keçirilən enerji strategiyası 2050-ci ilədək ölkəmizin neft hasilatının stabil şəkildə davam etdirilməsini, dövlət gəlirlərinin artırılmasını və eləcə də qeyri-neft sektorunun inkişafı üçün maliyyə təminatı formalaşdırmaqdadır. "Yeni əsrin müqaviləsi" çərçivəsində Azərbaycan iqtisadiyyatına 40 milyard dollar investisiya qoyulacaq. Bu, həm neft sektorunun inkişafı baxımından vacibdir, həm də bu sektora yardımçı sahələrin inkişafını stimullaşdıran amildir".



## Bakcell irimiqyaslı ekoloji aksiyaya qoşulub

**Bakcell şirkəti bu il də Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində Bakı çimərliklərində "Xəzəri qoruyaq" şüarı ilə keçirilmiş təmizlik aksiyasına qoşulub. Aksiyanın əsas məqsədi ölkədə ekoloji durumun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ etməkdir.**

"Coca-Cola" şirkətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə keçirilmiş bu aksiyanın əsas tərəfdaşları Bakcell, PAŞA Bank, "Carlsberg Azerbaijan" və "AzEcol" şirkətləri olub.

1000 nəfərdən çox könüllünün iştirakı ilə Xəzərin Bilgəh, Pirşağı, Goradil, Novxanı və Corat çimərliklərində keçirilən aksiyada 25 hektar ərazidən ümumilikdə 6.5 ton tullantı toplanılıb.

Aksiyanı dəstəkləyən qurumlar sırasında həmçinin Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, ABŞ-ın Azərbaycandakı səfirliyi, ADA universiteti, AFFA, Azərbaycan Velosiped İdmanı Federasiyası və Bakı Nəqliyyat Agentliyi yer alıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına müvafiq olaraq bütün iştirakçılar antiseptik vasitələrlə təmin olunub və aksiya sosial məsafənin qorunması, o cümlədən Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə mövcud məhdudiyyətlər nəzərə alınaraq təşkil edilib.

Qeyd edək ki, Bakcell şirkəti artıq uzun illərdir ardıcıl olaraq bu aksiyada iştirak edir. Bu hərəkata qoşulan ilk mobil operator kimi Bakcell ölkədə ekologiya sahəsində maarifləndirmə fəaliyyətinin həyata keçirilməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına öz töhfəsini verir.

# Aygün Kazımova yalan danışdı

### "Cavanşir Quliyev irad bildirib, "Şərq"ə gəlməyib"

**Xalq artisti Aygün Kazımova "Söhbət musiqidən gedir" proqramında illər əvvəl "Şərq" qəzeti ilə aralarında yaranmış insidentdən danışıb. O qeyd edib ki, "Şərq" qəzetində anası ilə bağlı xoşagəlməz xəbər yazılıb:**

"O zaman anam dünyasını dəyişmişdi. Görkəmli bəstəkarımız Cavanşir Quliyevlə birgə redaksiyalarına getdik. İnanın, C.Quliyev qapını açıb, içəri elə girdi ki, əlində silah olsa idi, baş redaktoru vurardı".



**Sənətçinin ittihamlarına cavab verən qəzetin baş redaktoru Akif Aşırlı vurğulayıb ki, "Şərq" həmişə A.Kazımovanın sənətinə, fəaliyyətinə diqqət yönəldib, valideynləri ilə bağlı heç bir mənfi yazı dərc etməyib və belə hal yaşanmayıb:** "Səhv etmirəmsə, 2000-ci illər idi, biz Aygün xanımın səhnə mədəniyyəti, geyim tərzi, müsahibələrində qəbul olunmayacaq ifadələrinin işlədilməsi ilə bağlı tənqidi yazı hazırlamışdıq. Bu məqalə etik ölçülər çərçivəsində yazılmışdı. "Şərq"in qədim dostu Cavanşir Quliyev mənə zəng etdi, danışdıq, iradlarını bildirdi. Dedi, Aygün xanım istedadlıdır, sənətkardır, onun geyimləri ilə bağlı tənqidləriniz haqsızdır və bu yenilikləri səhnədə etməlidir. Bizə də tövsiyə verdi ki, sözügedən məsələlərdə Aygün xanımın üstünə çox getməyək. Məqalə qəzetdə çap olunduqdan sonra Aygün xanım iki nəfərlə birgə redaksiyamıza gəldi. Biz onunla çox mədəni rəftar etdik, normal söhbət elədik. İndi isə deyib ki, guya, anası barəsində nəsə yazmışıq. Qətiyyən elə bir yazı olmayıb. İndi isə müsahibəsində Cavanşir müəllimin redaksiyaya gəlib, məni tənbeh etdiyini söyləyib. Belə deyil. Cavanşir bəy bizim dostlarımızdan biridir, hətta qəzetimizin 5 illik yubiley tədbirində, ilk sözü Cavanşir müəllimə verdik. Çünki o, Azərbaycan xalqı üçün bir dəyərdi."

**Samirə**



## Həkimi Xatirəyə şərt qoydu

### "Təcili şəkildə 5 kiloqram çəki atmağa nə kömək edə bilər?"

**Müğənni Xatirə İslam sosial şəbəkədə izləyicilərindən kömək istəyib.**

Medicina.az Axşam.az-a istinadən xəbər verir ki, sənətçi təcili arıqlamağın yollarını axtardığını yazıb. O bildirib ki, bu şərti ona həkimi qoyub. "Təcili şəkildə 5 kiloqram çəki atmağa nə kömək edə bilər? Həkimə söz vermişəm. 1 həftə, uzağı 10 günə ərzində arıqlamalıyam. Amma ziyansız olsun" deyə, Xatirə bildirib.

*Qeyd edək ki, Xatirə bundan əvvəl artıq çəkidən azad olmaq üçün plastik əməliyyat etdirmişdi.*

## "Bir yerdə insan çox olanda panikaya düşürəm"

### Nura Suri uşaqlıqda da qaçıb gizlənirmiş

**Müğənni Nura Suri "Özəl" proqramında qonaq olarkən uşaqlıq illərindən danışıb.**



"Şərq" xəbər verir ki, sənətçi digər həmyaşıdlarından fərqləndiyini söyləyib. N.Surinin sözlərinə görə, həmişə davaya, futbola marağı olub: "Hətta indi də elədir, məsələn, boksa gedirəm. Mən beynimi "söndürməyi", özümə qapanmağı sevirdim. Böyüdükdən sonra anladım ki, bunun adı meditasiyadır. Demə, doğulduğum andan məndə var imiş. Bir yerdə insan çox olanda panikaya düşürəm. Uşaqlıqda da qaçırdım, gizlənirdim, öz dünyama gedirdim. Məni çağırsalar da onları eşitmirdim. Daha çox mütalıə edirdim, kitablarda yaşayırdım. Oxuduğum kitaba diqqətimi verirdim".

**Samirə**

## TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.09.2021-ci il tarixli, 12942196126/21-15-12 saylı sifarişi ilə, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Neymətulla küçəsi 72 ünvanında yerləşən 0.43236 kv. metr torpaq sahəsinə dair 20 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 5.600.000 (beş milyon altı yüz min) manatdan 10% aşağı, yeni 5.040.000 (beş milyon qırx min) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 01 oktyabr 2021-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 252.000 (iki yüz əlli iki min) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

**Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla**

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

*Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


# Azercell Ağdamda keçirilən ilk Beynəlxalq elmi-praktik konfransı internet xidmətləri ilə təmin edib

**Azərbaycan Respublikası Prezidentinin Ağdam rayonu üzrə Xüsusi Nümayəndəliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Qarabağ Dirçəliş Fondu və AMEA İqtisadiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları" mövzusunda I Beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfransda "Ağdamda yeni iqtisadiyyat quruculuğu: iqtisadi potensial, prioritetlər və gözləntilər", "Ağdamın və bütövlükdə Qarabağın təbii resursları və yaşıl enerji potensialı", "Qarabağda iqtisadiyyatın ənənəvi və qeyri-ənənəvi sahələri arasında müvazinət", "Məcburi köçkünlərin Ağdama və Qarabağın digər bölgələrinə qayıdışı" məsələləri müzakirə olunub.

Azercell şirkətinin dəstəyilə konfrans iştirakçıları bütün tədbir boyunca yüksəksürətli internet xidmətləri ilə təmin olunublar. Azercell-in şəbəkəsi konfransın bəzi iclaslarının videoformatda - onlayn şəkildə keçirilməsini də mümkün edib.

Qeyd edək ki, "Azercell Telekom" işğaldan azad olunmuş ərazilərimizdə mobil infrastrukturun, eləcə də Şuşada 4G mobil şəbəkə stansiyalarının quraşdırılmasına başlayan ilk operator şirkətidir. Hərbi əməliyyatların başladığı ilk gündən Azercell-in mobil şəbəkəsi işğaldan azad edilən bölgələrimizdə fəaliyyət göstərib. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər ərazilər Azercell-in 2G/3G/4G standartlarını dəstəkləyən mobil şəbəkəsi ilə əhatə olunub.




Azad edilən ərazilərdə yeni həyatın qurulması prosesində aktiv iştirak edən Azercell şirkəti öz abunəçilərinə Qarabağ Dirçəliş Fonduna daha rahat və sürətli formada ianə köçürmək imkanını da yaradıb. Azercell-in "Kabinetim" tətbiqi üzərindən günün istənilən saatında, istənilən yerdən, 24/7 rejimində Fonda vəsait köçürmək mümkündür. Eyni funksiya Silahlı Qüvvələrə Yardım Fonduna ianə köçürülməsi üçün də yaradılıb. Azercell şirkəti döyüşlərin ilk günlərində Milli Ordumuza dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon manat həcmində vəsait köçürüb.

Qarabağa qayıdacaq əhalini ən sürətli mobil internet və qabaqcıl kommunikasiya xidmətləri ilə təmin etməyi hədəfləyən Azercell bu ərazilərdə mobil telekom infrastrukturunun qurulmasını intensiv şəkildə davam etdirir. Əminik ki, Azercell-in Qarabağ və ətraf bölgələrdə qurduğu LTE şəbəkəsi bu ərazilərin sürətli inkişafına təkan verəcək.

"Azercell Telekom" ölkəmizin sosial-iqtisadi inkişafı, Vətənimizin hər qarışında mükəmməl rabitənin qurulması istiqamətində səylərini bundan sonra da var gücü ilə davam etdirəcək.

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 24.08.2021-ci il tarixli, 174677/2021-16-22/6519 saylı sifarişi ilə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən "ELEKTROPARK" MMC-yə məxsus siyahıya alınmış əmlaklara dair 20 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin əmlaklar ilkin satış qiyməti olan 4.610 (dörd min altı yüz on) manatdan 20% aşağı, yeni 3.688 (üç min altı yüz səksən səkkiz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 01 oktyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 184 (yüz səksən dörd) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

----------------------------------------------

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 24.08.2021-ci il tarixli, 206541/2021-16-22/6520 saylı sifarişi ilə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən "Terra Group" MMC-yə məxsus siyahıya alınmış əmlaklara dair 20 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin əmlaklar ilkin satış qiyməti olan 300 (üç yüz) manatdan 20% aşağı, yeni 240 (iki yüz qırx) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 01 oktyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 12 (on iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

----------------------------------------------

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 20.08.2021-ci il tarixli, 149839/2021-16-22/6523 saylı sifarişi ilə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən Azərbaycan Bodibildinq Federasiyasına məxsus siyahıya alınmış əmlaklara dair 20 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin əmlaklar ilkin satış qiyməti olan 2.100 (iki min yüz) manatdan 20% aşağı, yeni 1680 (min altı yüz səksən) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 01 oktyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 84 (səksən dörd) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

*Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**


**Təsisçi və baş redaktor: Akif Aşırlı**

**Baş redaktorun ı müavini: Yusif Nəzərli**

**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski**

**Texniki heyət:**

**Rüfət Dadaşov, İmamcan Əliyev**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535**

**www.sherg.az**

**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1761**



## Çin "TikTok"a alternativ tapdı

### "Uşaqlar "Douyin"də yalnız 40 dəqiqə vaxt keçirə biləcəklər"

**Dünyada insanlar arasında asılılıq yaradan və bu səbəbdən daha çox müzakirə edilən "TikTok" sosial media tətbiqinə daha bir ölkədə istifadəsinə qadağa qoyulub.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, Çin hökuməti gənclərin internet asılılığını azaltmaq üçün yerli "TikTok" versiyası olan "Douyin"in istifadəsini tətbiq etmək qərarına gəlib. Alınan yeni qərara görə, "Douyin"in gənclərin internet asılılığını azaltmaq üçün 14 yaşından kiçik uşaqlara vaxt məhdudiyyəti qoyub. Həmin yaş kateqoriyasında olan uşaqlar "Douyin"də yalnız 40 dəqiqə vaxt keçirə biləcəklər. Həmçinin, qeyd olunub ki, yeni sosial media tətbiqinə yalnız sabah saat 6-dan axşam saat 12-dək girmək mümkün olacaq. Digər tərəfdən, şirkət valideynlər üçün başqa bir seçim olaraq "Xiao Qu Xing" (Little fun star) adlı başqa bir yeni tətbiqetməni istifadəyə verdiyini açıqlayıb. "TikTok"a bənzər bu tətbiqdə təhsil videolarının yayımlandığı və valideynlərin gündə 15 dəqiqəyə qədər vaxt təyin etmək hüququna sahib olduqları bildirilib.

**Aynurə**

## 3 göbələk al, 1400 dollar ver

### "Matsutake" göbələyi Yaponiyada hərraca çıxarılıb"



**Dünyanın ən bahalı qidalarından biri olan "Matsutake" göbələyi Yaponiyada hərraca çıxarılıb. Bu göbələk normal qiymətində belə dünyanın ən bahalı qidalarından biridir.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, göbələk hərrac nəticəsində dəyərindən yüz qat artıq qiymətə satılıb.

Məlumata görə, 70 qram ağırlığında olan 3 göbələk rekord qiymətə - 830 min yenə, yəni təxminən 1400 dollara satılıb.

**Yeganə**



# Koronavirus xəstəsi dördəm dünyaya gətirdi

### 32 yaşlı qadın ehtiyaclarını qarşılamaq üçün yardım gözləyir

**Məlahət Rzayeva**





**Mərsinin Anamur bölgəsində yaşayan 32 yaşlı Ayşə Kılıc özünü büruzə verən əlamətlərdən şübhələnərək həyat yoldaşı İbrahim Kılıcla xəstəxanaya gedib. Həm hamiləlik, həm də COVİD-19 testi verib. Kılıc ailəsi aldıqları xəbərə bir tərəfdən sevinib, bir tərəfdən də narahat olublar.**

Ayşə Kılıcın test analizlərinin cavabı hamilələrin təsdiqi ilə yanaşı, eyni zamanda COVİD-19-a qarşı da pozitib çıxıb. Ayşə Kılıc narahat olmasına rəğmən həkimlərin təyin etdiyi müalicə ilə koronavirusdan sağalıb. Ardınca isə daha bir xoş xəbər olub. Müayinədən keçərkən Ayşənin dördəmlərə hamilə olduğu müəyyənləşib. Ayşə Kılıc Antalyada qadın xəstəlikləri və doğum üzrə mütəxəssis professor Səlahəddin Qumru tərəfindən nəzarət altına alınıb. Hamiləliyin 32-ci həftəsində 1 kiloqram 400 - 1 kiloqram 600 qram çəkilərlə dörd qız övladı dünyaya gəlib. Körpələrə Almina Nida, Aynura Nisan, Alya Eda, Arya Ela adları verilib. Ayşə Kılıc "4 körpəyə qulluq etməkdə çətinlik çəkirəm. Çox yorucu olsa da, xoşbəxtəm. Gecələr heç yatmıram. Daim uşaq bezi, uşaq qidası almaq məcburiyyətindəyik", deyərək körpələrin ehtiyaclarını qarşılamaq üçün yardım gözlədiklərini dilə gətirib.




## Meyvə və tərəvəz tullantılarından gel hazırlanır

### "Gel sarğıların hazırlanması prosesi kifayət qədər maraqlıdır"

**Sinqapurdakı "Nanyang" Texnologiya Universitetinin (NTU) alimləri atılmış meyvə və tərəvəz qabıqlarını antibakterial gel sarğı halına gətirmək istəyir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, gel sarğıların hazırlanması prosesi kifayət qədər maraqlıdır.

Meyvələr dilimlənir və dondurularaq qurudulur, sonra meyvələrin qabıqlarından sellüloz tozu çıxarılır və qliserolla qarışdırılır. Bu qarışıq yumşaq hidrogelə çevrilir və nəticədə sarğılar istehsal olunur. Ənənəvi sarğılarla müqayisədə, hidrogel sarğıları yaralı bölgəni daha nəmli və sərin saxlayır, beləliklə bölgənin qısa müddətdə sağalmasına kömək edir.

**Yeganə**

## ABŞ-da koronavirusa yoluxan uşaq iflic keçirdi



**ABŞ-da koronavirusa yoluxan 8 yaşlı Avella Braun nadir rast gəlinən bir halla qarşılaşıb.**

Hələ mart ayında virusa tutulan azyaşlının orqanizmində autoimmun xəstəlik inkişaf etməyə başlayıb.

Xəstəlik nəticəsində Minnesota sakini iflic keçirib. Həkimlər Avellanın beynində şiş əmələ gəldiyini bildirib və ona kəskin yayılmış ensefalomiyelit diaqnozu qoyublar.

**Mənbə: "Mirror"**




## Dəftərlərin üzərinə şəhidlərimizin fotolarını vurmaq doğru deyil

### Çünki təşəbbüsün müsbət tərəfləri ilə yanaşı xoşagəlməz tərəfləri də mövcuddur

**Yeni çap olunan dəftərlərin üzərində Vətən müharibəsində şəhadətə ucalan igidlərimizin fotoları və onlar haqqında məlumatlar əks olunub. Beləliklə şagirdlər qəhrəmanlarımızı tanıyacaq, onları daim yadda saxlayacaqlar. Lakin bu təşəbbüs ictimaiyyətdə müzakirə doğurub. Əksəriyyət dəftərlərin istifadə olunduqdan sonra atılacağını, azyaşlı şagirdlər tərəfindən cırıla biləcəyini düşünüb və bunun düzgün olmadığını xüsusi vurğulayıblar.**

**Mövzunu "Şərq"ə dəyərləndirən təhsil üzrə ekspert Rafiq İsmayılov söyləyib ki, bu təşəbbüsün yaxşı tərəfləri də var:**



"Dəftərin üzərində əks olunması, uşaqların görməsi, yadda saxlaması gözəldir. Şəhidlərimizin müxtəlif yollarla yada salınması təqdirəlayiqdir. Lakin bu elə də böyük hadisə deyil ki, haqqında xüsusi yazılsın. Çünki bunun müsbət tərəfləri ilə yanaşı xoşagəlməz tərəfləri də mövcuddur. Təsəvvür edin, həmin dəftəri istifadə etdikdən sonra zibil qutusuna atacaqlar, üzərində də şəhidimizin fotosu olacaq. Bu tərəfini düşünmək lazımdır. Yəqin çap etdirən insan bunu fikirləşməyib, istəyib onları xatırlatsın. Mən isə belə ucuzlaşdırmazdım. Dəftərdə deyil, başqa davamlı qalan, rəflərdə yeri olan çap məhsullarının üzərində görmək istərdim".

**Samirə**

## Alman məşqçi iddialı danışdı

### "Bütün ölkənin qürur duyacağı bir yığma olmasını istəyirəm"



**Məlum olduğu kimi, Türkiyə milli yığması baş məşqçi Şenol Günəşlə yollarını ayırıb. Ş.Günəşin yerinə gələn alman məşqçi Stefan Kuntz üçün imza günü təşkil olunub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, yeni baş məşqçi görəcəyi işlərdən və yığma ilə bağlı ilk təəssüratlarından danışıb. O, bu iş üçün təklif gələndə özü ilə qürur duyduğunu söyləyib:

"Bilirəm ki, işin əsas hissəsi bundan sonra başlayır. İmza günündən sonra hamımız var gücümüzlə çalışıb, Norveçlə oyuna hazırlaşacağıq. Özümü güclü və pozitiv enerji dolu hiss edirəm. Türk futbolçularının potensialına bələdəm. Bu oyunçulara təşkilatçılıq və quruluş bacarıqları qazandıracağıq. Özgüvənimizlə Türkiyə bayrağına baxaraq uğurlarımızı qeyd edəcəyik. "Beşiktaş"ın baş məşqçisi Sərgən Yalçının uğurlarına və vəzifəsinə hörmətlə yanaşıram. Mart ayındakı performans bu vəzifəyə təyin olunanda məni həyəcanlandırdı. Yığmanın potensialını orada gördüm. İlk iş həmin potensialı necə qaytara biləcəyimizi tapmaqdır. Bütün ölkənin qürur duyacağı bir yığma olmasını istəyirəm".

**Samirə**

## Ailə həkimi qaldığı oteldə ölü tapıldı



**Türkiyənin Tekirdağ bölgəsinin Şarköy qəsəbəsində ailə həkimi Tezgül Şükrüoğlu (35), qaldığı otelin balkonunda ölü tapılıb.**

Tezgül Şükrüoğlunun Çorlu mahalında yaşayan ailəsi, xəbər ala bilmədiklərinə görə səhər saatlarında qaldığı otel səlahiyyətlilərinə vəziyyəti bildiriblər.

Otel sahibinin xəbər verdikdən sonra hadisə yerinə jandarma qrupları gəlib. Otağa daxil olunca Şükrüoğlu balkondakı kürsüdə hərəkətsiz oturaq halda aşkarlanıb. Sağlamlıq qrupunun müayinəsindən sonra Şükrüoğlunun həyatını itirdiyi məlum olub. Prokurorun da araşdırmasından sonra Şükrüoğlunun cansız bədəni, qəti ölüm səbəbinin təyin olunması üçün Tekirdağ Ədli Tibb Təşkilatına göndərilib.

Tezgül Şükrüoğlunun, 2,5 ay əvvəl Tekirdağın Çerkezköy qəsəbəsindən Hoşköy Ailə Sağlamlığı Mərkəzinə təyin edildiyi və burada oteldə tək qaldığı ifadə edilib.